QARABAĞ AZƏRBAYCANDIR!

# Səs

№ 188 (6629) 14 oktyabr 2022-ci il. Qiyməti 60 qəpik

## İnkişaf və uğurlarla zəngin 20 il



5




2

**"Azərbaycana ərazilərin minalardan təmizlənməsi üçün təxminən 30 il və 25 milyard ABŞ dolları lazımdır"**

# Ermənistan:

## Qərbə bağlanmış ümidlər



11

### Vəsiqəsi olmayan jurnalistlər jurnalist kimi fəaliyyət göstərə biləcək?




6

### Dünyada aclığın qarşısını almaq üçün hansı tədbirlər görülür?



13

### "Test imtahanında toplanan bal bilik göstəricisi ola bilməz"



16



11

## "Fransa həmişə ermənipərəst olub"

## Cənab Makron, siyasət heç də makaron deyil...




14

## Qardaşını öldürən şəxs tutulub



16

# “Azərbaycana ərazilərin minalardan təmizlənməsi üçün təxminən 30 il və 25 milyard ABŞ dolları lazımdır”

## Prezident İlham Əliyev Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin 6-cı Zirvə Toplantısının plenar iclasında iştirak edib







**Dünən Astanada Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin (AQEM) 6-cı Zirvə Toplantısının plenar iclası keçirilib. Azərbaycan Prezidenti İlham Əliyev tədbirdə iştirak edib. Əvvəlcə plenar iclasın gündəliyi qəbul edilib, daha sonra Küveytə AQEM-ə üzv dövlət statusu verilib. Beləliklə, Küveyt AQEM-in 28-ci üzv dövləti olub. Türkmənistan isə AQEM-ə müşahidəçi qismində qoşulub.**

## İlham Əliyev: "Azərbaycan Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin inkişafına mühüm töhfələr verir"



AQEM-in sədri olan Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev çıxış edərək 5-ci Zirvə Toplantısından ötən dövrdə görülən işlər barədə məlumat verib. Daha sonra Birləşmiş Millətlər Təşkilatının Baş katibi Antonio Quterreşin iclas iştirakçılarına videomüraciəti nümayiş olunub. Azərbaycan Prezidenti İlham Əliyev plenar iclasda çıxış edib. Prezident İlham Əliyev öz çıxışında qeyd edib ki, Ermənistan işğal zamanı bir milyondan çox mina basdırıb. İkinci Qarabağ müharibəsinin başa çatmasından keçən iki il ərzində 250-dən çox Azərbaycan vətəndaşı mina partlayışları zamanı həlak olub və ya ağır yaralanıb:

”Mən, ilk növbədə, Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevə Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin 6-cı Zirvə Toplantısına (AQEM) dəvətinə və qonaqpərvərliyə görə minnətdarlığımı bildirirəm.

Prezident Tokayevin Azərbaycana son uğurlu rəsmi səfəri zamanı ikitərəfli gündəliyin cari məsələləri ilə bağlı səmərəli müzakirələr apardıq. Azərbaycan Qazaxıstanda Prezident Tokayevin rəhbərliyi ilə aparılan siyasi və sosial-iqtisadi islahatları dəstəkləyir.

Hörmətli həmkarlar, İkinci Qarabağ müharibəsində qazanılmış Qələbə nəticəsində iki il əvvəl Azərbaycan öz torpaqlarını Ermənistan işğalından azad etdi, 30 il davam edən Qarabağ münaqişəsinə son qoydu, ədaləti bərpa etdi və BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən qeyd-şərtsiz çıxarılmasını tələb edən 4 qətnaməsinin icrasını özü təmin etdi.

Ermənistan tərəfindən 30 ilə yaxın davam edən işğal zamanı şəhərlərimiz və kəndlərimiz, mədəni və dini abidələrimiz, məscidlərimiz məqsədli şəkildə dağıdılıb, təhqir və talan edilib. Hətta məscidlərdən heyvan saxlamaq üçün tövlə kimi istifadə olunurdu.

Təəssüf ki, 30 il ərzində biz erməni cəmiyyətinin bu cür vandalizmə qarşı heç bir etirazını eşitmədik, əksinə, hətta bu dağıntılar, erməni vandallar və hərbi cinayətkarlar təqdir edilir və qəhrəmanlaşdırılırdı.

Ermənistan Azərbaycanın mülki əhalisinə və hərbçilərinə qarşı sistemli şəkildə müharibə cinayətləri törədib. Birinci Qarabağ müharibəsindən bəri 3900-ə yaxın Azərbaycan vətəndaşı itkin sayılır. Onların əksəriyyəti işgəncələrə məruz qalıb, öldürülüb və kütləvi məzarlıqlarda basdırılıb. Biz işğaldan azad edilmiş iki kənddə bu il kütləvi məzarlıqlar aşkar etdik.

Ermənistan Azərbaycana itkin düşənlərin taleyi və kütləvi məzarlıqların dəqiq yerləri barədə məlumat təqdim etməlidir. Biz iki ilə yaxındır ki, bu məlumatı tələb edirik, ancaq Ermənistan hökuməti bunu Azərbaycanla bölüşməkdən imtina edir və bununla da özünü Ermənistanın əvvəlki rejimlərinin cinayətkar liderləri ilə assosiasiya edir.

Azərbaycan dünyada mina ilə ən çox çirklənmiş ölkələr sırasındadır. İlkin hesablamalara görə, Ermənistan işğal zamanı bir milyondan çox mina basdırıb. İkinci Qarabağ müharibəsinin başa çatmasından keçən iki il ərzində 250-dən çox Azərbaycan vətəndaşı mina partlayışları zamanı həlak olub və ya ağır yaralanıb. Beynəlxalq mütəxəssislərin hesablamalarına görə, Azərbaycana ərazilərin minalardan təmizlənməsi məsələsini həll etmək üçün təxminən 30 il və 25 milyard ABŞ dolları lazımdır.

Minalardan təmizlənmə ilə paralel, indi Azərbaycan həm də işğaldan azad olunmuş ərazilərdə öz resursları hesabına genişmiqyaslı quruculuq işləri aparır. Biz, həmçinin keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına qayıdışı prosesinə başlamışıq. ”Böyük Qayıdış” adlanan proqram artıq başlayıb.

Qarabağ münaqişəsinin həll olunmasına baxmayaraq, Ermənistan sərhəddə təxribatlar törətməkdə davam edir, bunlardan sonuncusu isə bu ilin sentyabr ayında törədilib. Azərbaycan Silahlı Qüvvələri Ermənistanın hərbi təxribatının qarşısını almaq üçün qətiyyətli əks-həmlə əməliyyatına başlamağa məcbur oldu. Bütün bu təxribatlara görə məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür.

Ermənistan tərəfindən törədilmiş etnik təmizləmə nəticəsində bir milyondan çox azərbaycanlının 30 il ərzində əziyyət çəkməsinə, misli görünməmiş vəhşiliyə, yüzlərlə şəhər və kəndimizin dağıdılmasına baxmayaraq, Azərbaycan Ermənistana qarşılıqlı şəkildə bir-birinin ərazi bütövlüyünün tanınması əsasında sülh sazişi imzalamağı təklif edib.

Hörmətli həmkarlar, Azərbaycan tərəfindən həyata keçirilən genişmiqyaslı nəqliyyat infrastrukturu layihələri ölkəmizi ən mühüm beynəlxalq nəqliyyat və logistika mərkəzlərindən birinə çevirib. 2022-ci ilin ilk doqquz ayı ərzində Azərbaycan ərazisindən keçən tranzit təxminən 65 faiz artıb.

Azərbaycan Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin inkişafına mühüm töhfələr verir. Azərbaycan Orta Dəhlizin önəmli hissəsini təşkil edəcək Zəngəzur dəhlizinin yaradılmasını fəal şəkildə təşviq edir. 2019-cu ildən bəri Azərbaycan üzv ölkələrin yekdil qərarı əsasında dünyada BMT-dən sonra ən böyük beynəlxalq struktur olan Qoşulmama Hərəkatına sədrlik edir. Sədrliyimiz yenə də yekdil qərar əsasında daha bir il, 2023-cü ilin sonuna qədər uzadılıb.

Biz Qoşulmama Hərəkatı çərçivəsində həmrəyliyi gücləndirmək, bu Hərəkatın siyasi çəkisini və qlobal nüfuzunu artırmaq üçün böyük səylər göstəririk. Azərbaycan Hərəkatın bu məqsədlə təsisatlanması ideyasını fəal şəkildə təşviq edir. Bu baxımdan, Qoşulmama Hərəkatının Azərbaycanın təşəbbüsü ilə yaradılan Parlament Şəbəkəsi və Gənclər Təşkilatı qeyd edilməlidir.

*Ardı Səh. 3*

Əvvəli Səh. 2

Biz COVID-19-dan sonrakı dünya ilə bağlı fikir mübadiləsi aparmaq və Hərəkatın mövqeyini formalaşdırmaq məqsədilə Qoşulmama Hərəkatına üzv dövlətlərin növbəti il üçün yüksək səviyyəli iclasının keçirilməsini təklif etmişik."

Sonra digər dövlət və hökumət başçıları, nümayəndə heyətlərinin rəhbərləri çıxış ediblər. Plenar iclasda AQEM-in tamhüquqlu beynəlxalq təşkilata çevrilməsi planları müzakirə olunub. Növbəti iki ildə - 2022-2024-cü illərdə də AQEM-ə Qazaxıstan sədrlik edəcək.

Qeyd edək ki, əsas məqsədi və istiqamətləri Asiyada sülhün




və təhlükəsizliyin təmin edilməsi üçün çoxtərəfli yanaşmaları inkişaf etdirməklə əməkdaşlığı gücləndirmək olan Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin 6-cı Zirvə Toplantısı AQEM-in çağırılması barədə təşəbbüsün 30-cu ildönümünə həsr edilib və Qazaxıstanın sədrliyi ilə keçirilib. Zirvə Toplantısında 11 dövlət başçısı - Azərbaycan, Türkiyə, Rusiya, İran, Özbəkistan, Qırğızıstan, İraq, Fələstin, Tacikistan prezidentləri, Pakistanın Baş naziri, Qətər Əmiri, eləcə də Vyetnamın vitse-prezidenti, Çin Xalq Respublikası Sədrinin müavini və beş nazir, həmçinin AQEM-in dövlət müşahidəçisi olan Belarus Prezidenti iştirak ediblər.

# "Azərbaycan təkcə öz regionunda deyil, həm də daha geniş coğrafi miqyasda çox böyük rol oynayır"

## Astanada Azərbaycan Prezidenti İlham Əliyevin Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev ilə görüşü olub




**Oktyabrın 13-də Astanada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev ilə görüşü olub. Görüşdə çıxış edən Prezident Kasım-Jomart Tokayev bildirib ki, Azərbaycan təkcə öz regionunda deyil, həm də daha geniş coğrafi miqyasda çox böyük rol oynayır:**

-Hörmətli İlham Heydər oğlu, mən Sizə, ilk növbədə, buraya səfər etdiyinizə, Zirvə Toplantısının işində iştirak etdiyinizə, yekun nəticələrə nail olunmasına verdiyiniz müsbət töhfəyə görə minnətdarlığımı bildirmək istərdim. Sözsüz ki, mən bunu dəyərləndirirəm. Siz, necə deyərlər, buna vaxt ayırmısınız.

Bizim ikitərəfli qarşılıqlı münasibətlərimizə gəlincə, gözəl Bakı şəhərinə səfərim zamanı göstərilən qonaqpərvərliyə görə təşəkkürümü bildirməkdən başlamaq istərdim.

Zənnimcə, bizim danışıqlar məhsuldar, maraqlı olub və deməliyəm ki, xaricdə siyasi, iqtisadi dairələrin diqqətini cəlb edib. Buna görə də Azərbaycanı müttəfiqimiz, strateji tərəfdaşımız hesab edirik, daim bu xəttə sadiq qalacağıq. Azərbaycan təkcə öz regionunda deyil, həm də daha geniş coğrafi miqyasda çox böyük rol oynayır. Düşünürəm ki, bizim ortaq cəhətlərimiz çoxdur və ən müxtəlif sahələrdə əməkdaşlığı inkişaf etdirmək əzmindəyik. Biz bu barədə Bakıda ətraflı danışmışıq.

Bu gün gündəlikdə belə adlandırılan Orta Dəhlizin inkişafı məsələsi durur. Dünən mənim Türkiyə Prezidenti ilə danışıqlarım olub. O da, həmçinin müvafiq qurumların rəhbərlərinin Bakıda keçirilən görüşünə dəfələrlə istinad edib. Təbii ki, onlar bu iş formatının davam etdirilməsinə hədəflənib. Bizim tərəfimizdən, əlbəttə ki, hər hansı bir problem olmayacaq, əksinə, biz də bunda maraqlıyıq. Mən açıq çıxışlarımda Orta Dəhliz adlandırılan Transxəzər marşrutu barədə həmişə danışmışam.

Bizim müxtəlif sahələrdə, o cümlədən humanitar sahədə ənənəvi əlaqələrimiz var və bunların hamısı davam edəcək. Biz Azərbaycanın görkəmli dövlət xadimi Heydər Əliyevin adını daşıyan küçənin paytaxtımızda daha görkəmli yerə köçürməyin vacibliyindən danışmışıq. Belə bir yer müəyyənləşdirilmişdir. Mən onu bəyənmişəm. Bu, sadəcə, vaxt məsələsidir.



Azərbaycan Prezidenti İlham Əliyev:

-Çox sağ olun, hörmətli Kasım-Jomart Kemeleviç. Əvvəla, dəvətə görə təşəkkür edirəm. Qardaş Qazaxıstanda yenidən olmağıma çox şadam. Həmçinin keçirilmiş Zirvə Toplantısının yaxşı nəticələri münasibətilə təbrik etmək istərdim. Bu, Qazaxıstanın beynəlxalq arenada oynadığı rolun və Sizin ölkənizin yüksək nüfuzunun daha bir nümayişidir.

Həmçinin sabah daha bir Zirvə Toplantısı olacaq. Yəni, başa düşürəm ki, Sizin qrafikiniz nə dərəcədə gərgindir və bu mühüm hadisələrə hazırlıqla bağlı məsələlər, əlbəttə, çox vaxt aparır. Odur ki, görüşmək fürsətinə görə şadam.

Sizə, ilk növbədə, Heydər Əlirza oğlu Əliyevin xatirəsinə dərin ehtiramınıza görə təşəkkür etmək istərdim. Biz Sizinlə bu barədə danışdıq. Mən qəbul edilmiş qərarlara görə minnətdaram.

Həmçinin Azərbaycana Sizin rəsmi səfərinizi və bizim görüşümüzü, danışıqlarımızı, həm ikitərəfli gündəlik, həm də regional problemlər üzrə hərtərəfli fikir mübadiləmizi səmimiyyətlə xatırlayıram. Zənnimcə, Sizin səfərinizdən sonra artıq yaxşı nailiyyətlər, nəticələr var, - biz indi bu barədə danışacağıq, - həm nəqliyyat sahəsində, həm də digər sahələrdə. Orta Dəhlizin inkişafı ilə bağlı məsələlər zamanın hökmüdür. Yaxşı ki, həm Qazaxıstan, həm Azərbaycan buna hazır idi, çünki bizim ölkələrdə çox müasir nəqliyyat infrastrukturu yaradılıb ki, bu, çox böyük həcmdə yükləri artıq bu gün daşımağa imkan verir. Lakin düşünürəm ki, gələcək infrastruktur planlarımızın əlaqələndirilməsi zamanı biz Transxəzər marşrutunun buraxılış qabiliyyətinin genişləndirilməsi üzrə bundan sonrakı işləri sinxronlaşdıra bilərik. Bu, bizim ölkələrin və xalqların marağında, uzunmüddətli maraqlarda, qonşuluğumuzdakı ölkələrin maraqlarında olacaq. Yəni, bu mövzunun çox ciddi davamı olacaq.

Digər bütün məsələlər üzrə isə, Siz qeyd etdiyiniz kimi, bizim ölkələr müttəfiqdir, strateji tərəfdaşdır. Bu müttəfiqlik ortaq köklərə və ümumi maraqlara əsaslanır. Sizi Zirvə Toplantısının uğurla keçirilməsi münasibətilə bir daha təbrik etmək və qonaqpərvərliyə görə təşəkkür etmək istərdim.

Görüşdə energetika, nəqliyyat-logistika sahələrində əməkdaşlıq məsələləri müzakirə olundu. Həmçinin Azərbaycan-Türkiyə-Qazaxıstan üçtərəfli formatda keçirilən görüşlərin davam etdirilməsi barədə fikir mübadiləsi aparıldı.



# "Azərbaycan Xəzər dənizində və Cənubi Qafqaz regionunda sülhün və təhlükəsizliyin təmin olunması istiqamətində səylərini davam etdirir"

## Azərbaycan Prezidenti İlham Əliyevin Astanada İran Prezidenti Seyid İbrahim Rəisi ilə görüşü olub

Oktyabrın 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Astanada İran İslam Respublikasının Prezidenti Seyid İbrahim Rəisi ilə görüşü olub. Görüşdən məmnunluğunu ifadə edən Prezident Seyid İbrahim Rəisi Azərbaycan Respublikasının İran İslam Respublikasının qonşuları içərisində ölkəsi üçün çox vacib tərəfdaş olduğunu bildirdi. Ölkələrimiz arasında iqtisadi-ticari əlaqələrin səviyyəsindən məmnunluğunu bildirən İran Prezidenti dedi ki, İranın Azərbaycanla əməkdaşlığı hərtərəfli inkişaf etdirmək üçün ciddi niyyəti var.

Prezident İlham Əliyev Azərbaycanın Xəzər dənizində və Cənubi Qafqaz regionunda sülhün və təhlükəsizliyin təmin olunması istiqamətində səylərini davam etdirdiyini dedi.

Dövlətimizin başçısı xüsusilə Xəzəryanı ölkələr arasında münasibətlərin dostluq əsasında inkişafından razılığını ifadə etdi.

Azərbaycanın müstəqil xarici siyasət həyata keçirdiyini vurğulayan Prezident İlham Əliyev bu il sentyabrın 12-13-də Ermənistanın regional vəziyyəti gərginləşdirmək istiqamətində təxribatlar törətdiyini diqqətə çatdırdı. Hazırda Cənubi Qafqazda sülh quruculuğu proseslərinin getdiyini deyən dövlətimizin başçısı bildirdi ki, Azərbaycan irəli sürdüyü 5 prinsip əsasında Ermənistanla sülh müqaviləsinin imzalanmasını təklif edib. Dövlətimizin başçısı Ermənistan tərəfindən siyasi iradə göstəriləcəyi təqdirdə, bu istiqamətdə irəliləyişə nail olmağın mümkünlüyünə inandığını qeyd etdi.

Görüşdə İranla Azərbaycan arasında Ağbənd körpüsünün açılışının həm rəmzi, həm də böyük praktiki əhəmiyyətinin olduğu qeyd edildi. Söhbət zamanı qarşılıqlı maraq doğuran regional təhlükəsizlik məsələləri barədə fikir mübadiləsi aparıldı.



# “Rusiya Azərbaycanın aparıcı iqtisadi-ticari tərəfdaşlarından biri kimi qalmaqdadır”

## Azərbaycan Prezidenti İlham Əliyev və Rusiya Prezidenti Vladimir Putin Astanada görüşüblər



Oktyabrın 13-də Astanada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasının Prezidenti Vladimir Putinlə görüşü olub. Dövlətimizin başçısını salamlayan Prezident Vladimir Putin qeyd edib ki, Rusiya Azərbaycanın aparıcı iqtisadi-ticari tərəfdaşlarından biri kimi qalmaqdadır:

-Hörmətli İlham Heydər oğlu, Sizinlə bugünkü tədbir çərçivəsində indi görüşmək fürsətinə görə çox şadam. Biz Sizinlə müntəzəm olaraq görüşürük və həmişə nədənsə danışmağa mövzu var. Çünki çox müxtəlif istiqamətlər üzrə kifayət qədər geniş qarşılıqlı fəaliyyət mövcuddur. Rusiya Azərbaycanın aparıcı iqtisadi-ticari tərəfdaşlarından biri kimi qalmaqdadır və əmtəə dövriyyəsi artır. Məncə, ötən il 14 faiz artıb, bu ilin ilk 7 ayı ərzində 7 faizdən çox artıb. Bizim iqtisadi operatorlar Azərbaycan iqtisadiyyatına 4,5 milyard dollar sərmayə yatırıblar.

Hökumətlərarası Komissiyanın həmsədrləri müntəzəm görüşürlər. İşlər Sizin təklif etdiyiniz plan üzrə gedir. Düşünürəm ki, 2024-cü il də daxil olmaqla, Sizin tərəfinizdən təklif olunan bir sıra perspektivli, maraqlı layihələr üzrə gedir. Təbii ki, biz regionda vəziyyətin nizamlanması ilə bağlı məsələləri də həmişə diqqətdə saxlayırıq. Ümidvaram ki, bütün bu məsələlər üzrə bir daha danışmaq fürsətindən də istifadə edəcəyik və mövqelərimizi dəqiqləşdirəcəyik.

Prezident İlham Əliyev:

-Vladimir Vladimiroviç, Sizi yenidən görməyimə çox şadam. Siz tamamilə haqlısınız, biz müntəzəm görüşürük, demək olar, bu yaxınlarda Sankt-Peterburqda, o görüşə qədər isə ötən ay Səmərqənddə. Bizim münasibətlər nə dərəcədə dinamik inkişaf etsə də, Siz dediyiniz kimi, bir çox məsələlər üzrə mövqelərimizi dəqiqləşdirməyə həmişə ehtiyac var. Biz ölkələrimiz arasında münasibətlərin bu cür inkişaf etməsinə görə çox şadıq. Fikrimcə, bu münasibətlər ən yüksək səviyyəyə - müttəfiqlik qarşılıqlı fəaliyyət səviyyəsinə çatıb və biz bir çox məsələlər üzrə fəal surətdə irəliləyirik. Siz qeyd etdiniz, təsdiqləmək istəyirəm ki, iqtisadi-ticari əlaqələr üzrə əmtəə dövriyyəsində artım var. İndi müəyyən etdiyimiz və bundan əvvəlki görüşlərdə razılaşdırdığımız layihələr bizə qarşılıqlı ticarəti daha da artırmaq imkanı verəcək. Həmçinin nəqliyyat, energetika sahələrində və humanitar sahədə əməkdaşlıqla bağlı məsələlər. Biz bütün istiqamətlər üzrə müsbət dinamika görürük. Lakin, əlbəttə, hər bir görüşdə biz regionumuzda təhlükəsizliyə, sülhə nail olmaq məsələlərindən yan keçmirik. Biz bu gün bu barədə də danışacağıq. Biz uzunmüddətli sülhə hədəflənmişik. Biz hesab edirik ki, nəhayət bu sülhə nail olmaqdan ötrü öz tərəfimizdən kifayət qədər konstruktiv tezislər təklif etmişik. Beləliklə, görüşmək fürsətinə görə bir daha təşəkkür edirəm. Əminəm ki, bu görüş də çox məhsuldar olacaq. Sağ olun.

# “Ölkəmizdə siyasi dialoq mədəniyyətinin inkişafı uğurla davam etdirilir”

## Prezident Administrasiyasında Ümid Partiyasının və Haqq Ədalət Partiyasının rəhbərləri ilə görüş olub

***Oktyabrın 13-də Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev Azərbaycan Ümid Partiyasının sədri İqbal Ağazadə ilə görüşüb.***



Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsindən SİA-ya bildiriblər ki, görüş zamanı ölkədə aparılan iqtidar-müxalifət dialoqu, siyasi islahatlar, həmçinin siyasi plüralizm barədə söz açan şöbə müdiri Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə siyasi dialoq mədəniyyətinin inkişafının uğurla davam etdirildiyini, aparılan çoxşaxəli islahatların müvəffəqiyyətlə həyata keçirildiyini, bir çox məsələlərlə bağlı qanunvericilik və institusional tədbirlərin görülduyünü diqqətə çatdırıb. Ölkədə aparılan iqtidar-müxalifət dialoquna töhfə vermək məqsədilə müxtəlif siyasi partiyaların fəaliyyəti üçün geniş şərait yaradılmasından bəhs edən Administrasiya rəsmisi ölkədə sabit siyasi mühitin dəstəklənməsi və siyasi partiyaların bölgələrdə də normal fəaliyyətinin təmin olunması üçün şöbə tərəfindən mütəmadi qaydada iş aparıldığını vurğulayıb. Görüş zamanı şöbə müdiri son dövrdə 11 yeni siyasi partiyanın dövlət qeydiyyatına alınmasını, partiyaların qərargahlarla təmin edilməsini, fəaliyyətlərinin legitimləşdirilməsini, ölkədə fəaliyyət göstərən media resurslarına çıxış imkanlarının genişləndirilməsini, milli və siyasi həmrəyliyin təmin olunmasını qeyd edib və bunu iqtidar-müxalifət dialoqunun real nəticələri kimi dəyərləndirib.

İqtidar-müxalifət dialoqu çərçivəsində görüşə dəvət edildiyi üçün təşəkkürünü bildirən Azərbaycan Ümid Partiyasının sədri İqbal Ağazadə yeni siyasi konfiqurasiyanın inkişafı istiqamətində görülən işlərlə bağlı öz fikirlərini bölüşüb. Ölkədə aparılan siyasi islahatlar, siyasi partiyaların fəaliyyəti barədə söz açan partiya sədri bu gün ölkədə yaradılmış yeni siyasi münasibətlər sisteminin gələcəkdə dayanıqlı siyasi sistemin formalaşmasına şərait yaradacağını qeyd edib. Sonda tərəflər ölkəmizdə iqtidar-müxalifət dialoqunun inkişaf perspektivləri, Vətən müharibəsindən sonra yeni geosiyasi reallıqlar, Qarabağda bərpa-quruculuq işləri və başqa məsələlər haqqında müzakirələr aparıblar. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin son günlər Çexiya, Rusiya, Qırğızıstan və Qazaxıstana işgüzar səfərləri yüksək qiymətləndirilib və bunun Azərbaycanın dünya siyasətində artan nüfuzunun göstəricisi olduğu vurğulanıb.

Dünən həmçinin Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev Haqq Ədalət Partiyasının sədri Əli İnsanov ilə görüşüb.

Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə şöbə müdiri ölkəmizdə siyasi dialoq mədəniyyətinin və cəmiyyətin inkişafı naminə həyata keçirilən iqtidar-müxalifət əməkdaşlığının perspektivlərindən, dövlət-partiya və partiyalararası münasibət, çoxpartiyalı siyasi sistemin inkişafına dövlət dəstəyi barədə söz açıb, siyasi tariximizin zənginləşməsində, dövlətçiliyimizin möhkəmlənməsində siyasi partiyaların rolunun önəmli olduğunu qeyd edib. Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan siyasi islahatlar nəticəsində siyasi partiyaların fəaliyyəti üçün geniş zəmin yaradıldığı, həmçinin siyasi partiyaların qərargahlarla təmin olunması, fəaliyyətlərinin legitimləşdirilməsi, ölkədə fəaliyyət göstərən dövlət və özəl media resurslarına çıxış üçün geniş imkanlarının yaradılması, ölkədə milli və siyasi həmrəyliyin təmin olunması, yeni siyasi partiyaların dövlət qeydiyyatına alınması və digər məsələlər yeni siyasi konfiqurasiyanın əsas konturları olduğu vurğulanıb. Şöbə müdiri, həmçinin əksər siyasi partiyaların sağlam iqtidar-müxalifət dialoqunun və çoxpartiyalı siyasi sistemin inkişafına öz töhfəsini verdiklərini bildirib.

İkinci Qarabağ müharibəsində qazanılmış Qələbə nəticəsində regionda yaranmış yeni geosiyasi reallıqlar, aparılan islahatların əhəmiyyəti, ölkəmizin qlobal təşəbbüsləri və Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında Azərbaycanın artan rolu, Böyük Qayıdışla bağlı icra olunan layihələr, dünyada baş verən müxtəlif hadisələr fonunda ölkəmizdə siyasi sabitliyin qorunmasının strateji əhəmiyyəti və bir sıra digər məsələlərin müzakirəsi çərçivəsində xüsusi olaraq vurğulanıb ki, dövlətin inkişafı üçün strateji əhəmiyyət kəsb edən məsələlərdə ölkəmizdə fəaliyyət göstərən siyasi partiyalar fəal mövqe tutmalıdırlar.

Sonda tərəflər konstruktiv əməkdaşlığın əhəmiyyətini nəzərə alaraq bu işi sistemli şəkildə davam etdirmək ətrafında fikir mübadiləsi aparıblar. Oktyabrın 6-da Praqada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Fransa Prezidenti Emmanuel Makron, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel və Ermənistanın baş naziri Nikol Paşinyan ilə görüşü yüksək qiymətləndirilib və belə görüşlərin regionda sülhün və təhlükəsizliyin təmin olunmasında vacib rol oynayacağı bildirilib.

# Pakistanlı ekspert: ”Ermənistan Azərbaycanla müharibəyə və son illər gərginliyə görə məsuliyyət daşıyır”

Pakistanlı ekspert, YFK beyin mərkəzinin icraçı direktoru Zaman Bacva ölkəsinin mətbuatında Azərbaycan və Ermənistan arasında münaqişənin tarixi və səbəbləri, həmçinin məntiqi nəticələri barədə məqalə ilə çıxış edib. AZƏRTAC xəbər verir ki, ”Cənubi Qafqazda ölümcül müharibə zonası; Ermənistan Azərbaycan münaqişəsi” sərlövhəli məqalədə Qarabağı və ətraf rayonları 30 ilə yaxın müddətdə işğal altında saxlayan Ermənistanın danışıqları prosesində qeyri-konstruktiv mövqeyi, iki il əvvəl yeni müharibənin alovlanması və onun Azərbaycanın Qələbəsi ilə nəticələndiyi bildirilir.

Müəllif yazır: ”Ən ölümcül münaqişə zonasını tarixən təhlil etdikdə görürük ki, bunun kökündə beynəlxalq miqyasda Azərbaycanın bir hissəsi kimi tanınan ərazilərin ermənilər tərəfindən işğalı faktı dayanır. Sovet İttifaqı bu iki ölkənin sərhədlərini öz maraqlarına uyğun dəyişdirib və bununla regionda gələcək münaqişənin toxumları səpilib. Həmin münaqişənin geosiyasi aspekti postsovet dövründə daha da mürəkkəbləşib və hər iki ölkənin müstəqilliyini elan etməsindən sonra aktiv fazaya keçib. Birinci Qarabağ müharibəsi humanitar və iqtisadi böhrana səbəb olub. Qarabağda ermənilərin elan etdikləri qondarma ”respublika” isə Ermənistanın özü də daxil olmaqla heç bir dövlət tərəfindən tanınmayıb”.



Ekspert qeyd edir ki, son bir neçə ildə müharibənin yenidən alovlanması və davam edən silahlı toqquşmaların bütün məsuliyyəti yalnız Ermənistanın üzərinə düşür. ”Müharibə Ermənistanın baş nazirinin Qarabağın dağlıq hissəsinin Ermənistanın bir hissəsi olduğu açıqlaması ilə başladı. Bu ritorik hərəkətin ardınca həmin ərazidə saxta seçkilər keçirildi. Ermənistanın bu təxribatçı hərəkətləri Azərbaycana ekzistensial təhlükə yaratmaqla yanaşı, keçmiş razılaşmaların bəndlərini də pozmuş oldu. Bu cür hərbi təhdidlər fonunda Azərbaycan müdafiə tədbirləri həyata keçirdi. Nəticədə Azərbaycan itirdiyi Qarabağ bölgəsini, o cümlədən Şuşa şəhərini uğurla işğaldan azad etdi”, - deyə məqalədə vurğulanır.




# İnkişaf və uğurlarla zəngin 20 il

Ölkədə idman və Olimpiya Hərəkatının inkişafı, idmançılarımızın Olimpiya Oyunlarında, dünya və Avropa çempionatlarında qazandıqları uğurlar, paytaxtımızda keçirilən irimiqyaslı yarışlara uğurlu ev sahibliyi etməsi Azərbaycanı dünyada idman ölkəsi kimi tanıdıb. Dövlət səviyyəsində göstərilən diqqət və qayğı, müasir idman infrastrukturun yaradılması idmanın inkişafında yeni mərhələ təşkil edir. Azərbaycanda dövlətin idman siyasətini rəhbər tutan federasiyalar da öz fəaliyyətlərini mövcud dövrün tələbləri səviyyəsində qururlar. Ölkəmizdə fəaliyyət göstərən idman federasiyaları arasında Azərbaycan Gimnastika Federasiyası (AGF) səmərəli, işgüzar fəaliyyəti və yenilikləri ilə diqqət çəkir. AGF ölkənin ən fəal idman qurumlarından biri kimi uğurlara sahib olub. Federasiyada gimnastikanın 6 növü müvəffəqiyyətlə inkişaf etdirilir. Gimnastika idman növü uşaq və gənclərin fiziki və mənəvi tərbiyəsində xüsusi rola malikdir. Əlbəttə ki, idman gimnastikadan başlayır. İdmanının inkişafı, istərsə də, beynəlxalq yarışların keçirilməsi istiqamətində əldə olunan uğurlar federasiyayanın qarşıya qoyduğu hədəflərin nəticəsidir. Vurğulamaq yerinnə düşər ki, Gimnastika Olimpiya Oyunlarının proqramına 1896-cı ildə daxil edilib. İdman gimnastikası üzrə dünya çempionatları 1903, Avropa çempionatları isə 1955-ci ildən keçirilir. Azərbaycanda isə idman gimnastikası keçən əsrin 30-cu illərindən etibarən inkişaf etməyə başlayıb. 1939-cu ildə Bakıda ilk respublika çempionatı keçirilib. 50-ci illərin sonundan etibarən isə Azərbaycanda güclü idman gimnastları nəsli yetişib. Ölkəmiz müstəqillik əldə etdikdən sonra AGF 1993-cü ildə Beynəlxalq Gimnastika Federasiyasına, 1996-cı ildə isə Avropa Gimnastika İttifaqına üzv qəbul olunub. AGF-nin 2002-ci il oktyabrın 7-də keçirilən təsis konfransında ölkənin birinci xanımı, Birinci vitse-prezident Mehriban xanım Əliyeva federasiyanın prezidenti seçilib. Həmin vaxtdan etibarən federasiyada bütün işlər yenidən qurulub və bu sahədə böyük dönüş yaranıb. Azərbaycan Gimnastika Federasiyasının vitse-prezidenti Altay Həsənovun qurumun yenidən qurulmasının 20 illiyi ilə bağlı federasiyanın mətbuat xidmətinə verdiyi müsahibədə bildirdiyi kimi, "Müstəqilliyi bərpa etdikdən sonra gimnastikanın dirçəlişi məhz 2002-ci ildə federasiyanın yenidən qurulduğu vaxtdan başladı. Sözsüz ki, biz bu yola çıxanda qarşımıza müəyyən hədəflər qoymuşduq. Məqsədlərimizə doğru addımladıqca müəyyən çətinliklərin olacağını bilirdik. Məsələyə real yanaşıb, məsuliyyəti hiss edirdik. Nəticədə, bu gün ölkəmizdə gimnastikanın 9 növü inkişaf etdirilir. Çoxsaylı beynəlxalq yarışlara yüksək səviyyədə ev sahibliyi edirik. Həm beynəlxalq arenada idmançılarımız uğurlar qazanır, həm də federasiya nümayəndələrimiz beynəlxalq qurumlara seçilir".

Federasiyanın 20 illik səmərəli fəaliyyəti nəticəsində bu gün ölkə gimnastikası öz inkişaf dövrünü yaşayır. Gimnastikanın bütün növləri üzrə maddi-texniki bazanın gücləndirilməsi, kadr islahatlarının aparılması sayəsində 2002-ci ildən başlayaraq bu sahədə yüksək uğurlar qazanılıb. AGF-in məqsədyönlü və səmərəli fəaliyyətinin nəticəsində uşaq, yeniyetmə və gənclərin gimnastika növləri üzrə bölmələrə axını artıb. Məlumat üçün bildirək ki, ilk dövrlərdə ölkəmizdə əsasən bədii gimnastika, akrobatika və tamplinq növləri fəaliyyət göstərib. Mehriban xanım Əliyevanın AGF-yə rəhbər seçilməsindən sonra uğurlar davamlı oldu. Qısa müddət ərzində bu sahədə görülən işlər, irəliyə doğru atılan mütərəqqi addımlar öz bəhrəsini verməyə başladı. Ölkə gimnastikasının inkişaf etdirilməsi istiqamətində mühüm islahatlar aparan Azərbaycan Gimnastika Federasiyasının rəhbərliyi beynəlxalq qurumlarla da əlaqələr quraraq qarşılıqlı və sıx əməkdaşlığa başladı.




## DÜZGÜN VƏ VAXTINDA VERİLMİŞ QƏRARLAR VƏ GÜCLÜ STRATEGİYA

Qısa müddətdə bu sahədə qazanılan uğurları dəyərləndirən beynəlxalq qurumların rəhbərləri yüksək səviyyəli mötəbər tədbirlərə və yarışlara ev sahibliyini tərəddüd etmədən ölkəmizə həvalə etdilər. "Bugünkü nailiyyətlərimiz AGF-nin prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi ilə düzgün və vaxtında verilmiş qərarlar və güclü strategiya sayəsində əldə olunub. Uğurların sirri həm də yeniliklərə açıq olmağımızla bağlıdır" deyən qurumun vitse-prezidenti bildirib ki, 20 il ərzində bizim ən böyük məqsədlərimizdən biri ölkəmizdə bu ənənənin yaradılması, əhalinin gimnastikaya marağının artırılması olub"" - deyə Altay Həsənov bildirib. Belə ki, yeni rəhbərliyin fəaliyyətə başlamasından cəmi bir neçə ay sonra - 2003-cü ilin avqustunda Bakıda ilk dəfə bədii gimnastika üzrə Dünya kuboku mərhələsi təşkil olundu. 2004-cü ilin aprelində Bakıda ikinci dəfə bədii gimnastika üzrə Dünya kuboku mərhələsi təşkil edildi. Afina-2004 Olimpiadasında ölkəmiz gimnastika idman növündə ilk dəfə təmsil olundu. 2005-ci il Azərbaycan Gimnastika Federasiyasının fəaliyyətində xüsusilə əlamətdar il oldu. Bakıda üçüncü dəfə "A" seriyasına aid bədii gimnastika üzrə Dünya kuboku keçirildi və ölkəmiz müstəqil Azərbaycanın tarixində ilk dəfə bədii gimnastika üzrə 27-ci dünya çempionatına ev sahibliyi etdi.2009-cu ildə Bakının ev sahibliyi ilə ikinci dəfə bədii gimnastika üzrə Avropa çempionatı keçirildi. Bakıda təşkil olunan 25-ci qitə çempionatında gimnastlarımız komanda hesabında iki gümüş, fərdi yarışlarda isə bir bürünc medal qazandılar. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə 2012-ci ilin ölkəmizdə "İdman ili" elan olunması bu sahədə kütləviliyə böyük təkan verdi. İdmanın bütün növləri üzrə əldə olunan medalların sayı, əvvəlki illərlə müqayisədə xeyli artdı. "İdman ili" Azərbaycanın gimnastları üçün qənaətbəxş oldu. Gimnastlarımız həmin ildə 123 medal qazandılar. Bu medallardan 41-i qızıl, 45-i gümüş, 37-si isə bürünc idi. 2012-ci ilin ən mötəbər yarışı Londonda keçirilən XXX Yay Olimpiya Oyunları oldu. Olimpiadada Azərbaycan Olimpiya yığmasının qazandığı 10 medal ölkəmizin ən böyük idman nailiyyətlərindən biri idi. 2014-cü ildə istifadəyə verilən Milli Gimnastika Arenası (MGA) Azərbaycanda gimnastikanın inkişafında növbəti mühüm addım oldu.

2016-cı ildə Azərbaycan Gimnastika Federasiyasının prezidenti Mehriban xanım Əliyevanın Avropada idmanın inkişafı və Olimpiya Hərəkatına verdiyi töhfəyə görə Avropa Olimpiya Komitələrinin ən yüksək mükafatı olan "Ali Ordeni" ilə təltif olunması AGF prezidentinin beynəlxalq miqyasda fəaliyyətinə verilən yüksək qiymətin göstəricisi idi.

AGF-in uğurları 2017-ci ildə də davam etdirildi. Federasiyanın prezidenti Mehriban xanım Əliyeva Olimpiya idman növü olan gimnastikanın inkişafındakı böyük xidmətlərinə görə Beynəlxalq Gimnastika Federasiyasının yüksək mükafatı ilə təltif edildi. Azərbaycanda gimnastikanın inkişafı, əldə olunan uğurlar beynəlxalq əlaqələrin də inkişafına öz müsbət təsirini göstərməyə bilməzdi. 2017-ci ilin may ayında Bakıda keçirilən IV İslam Həmrəyliyi Oyunlarında Azərbaycan gimnastları bədii gimnastika, kişi və qadın idman gimnastikası üzrə yarışlarda ümumilikdə, 20 medala (9 qızıl, 7 gümüş və 4 bürünc) sahib çıxdılar. Bu, gimnastlarımızın yarışda əldə etdikləri medal sayına görə rekord göstərici idi. Qazanılan medallardan 8-si (4 qızıl, 2 gümüş və 2 bürünc) bədii gimnastlarımızın, 12-si isə idman gimnastlarımızın payına düşürdü.



## "FEDERASİYAMIZIN RƏHBƏRLİYİ TƏRƏFİNDƏN DÜZGÜN QURULMUŞ İŞLƏRİN NƏTİCƏSİDİR Kİ, BİZ 20 İL ƏRZİNDƏ DAİM İNKİŞAF EDƏRƏK BU SƏVİYYƏYƏ ÇATMIŞIQ"

Yarışlarla yanaşı, 2018-ci il federasiya üçün digər tədbirlərin təşkili ilə də yadda qaldı. Belə ki, bu il ərzində FİG Akademiyasının bədii gimnastika, kişi idman gimnastikası və aerobika gimnastikası üzrə məşqçilik kursları da paytaxtımızda təşkil olundu. Bakıda FİG-in ali orqanı olan Konqresin 82-ci iclası keçirildi. AGF-in ilk dəfə ev sahibliyi etdiyi bu mötəbər tədbirdə 111 ölkədən 300-dən çox nümayəndə iştirak etdi. AGF idman yarışlarının yüksək səviyyədə təşkilinə və keçirilməsinə görə Azərbaycan Milli Olimpiya Komitəsi və Gənclər və İdman Nazirliyi tərəfindən də mükafata layiq görüldü.

Bakıda bədii gimnastika üzrə XXXV Avropa çempionatının, Aerobika gimnastikası üzrə XI Avropa çempionatının keçirilməsi yaddaqalan hadisələrlə zəngin oldu. 20 il ərzində AGF həm də dünyada milli gimnastika federasiyaları arasında ən yaxşı olaraq fərqləndi. Altı il ardıcıl olaraq Beynəlxalq Gimnastika Federasiyası tərəfindən fərqlənən 10 federasiyasının sırasına daxil olub, Gələcək üçün hədəflərə gəlincə isə "Təbii ki, federasiyamızın rəhbərliyi tərəfindən düzgün qurulmuş işlərin nəticəsidir ki, biz 20 il ərzində daim inkişaf edərək bu səviyyəyə çatmışıq Gələcəkdə hədəflərimiz isə əldə etdiklərimizi qoruyub saxlamaq, gimnastikanın inkişafında günün nəbzini tutmaq, yeniliklərdən çəkinməmək və gimnastikanın ölkəmizdə daha da inkişaf etməsinə can atmaqdır" - deyə Altay Həsənov diqqətə çatdırıb.

Əldə olunan nailiyyətlər, qazanılan uğurlar onu deməyə əsas verir ki, AGF-nin prezidenti, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın ötən 20 il ərzində federasiyaya rəhbərliyi, səmərəli fəaliyyəti ölkəmizdə gimnastikanın dinamik inkişafı, idmanın bu növünün kütləviliyinin artırılması, bölgələrdə ən müasir idman mərkəzlərinin yaradılması, beynəlxalq aləmdə parlaq nailiyyətlərlə müşahidə olunur.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Vəsiqəsi olmayan jurnalistlər jurnalist kimi fəaliyyət göstərə biləcək?

**Bildiyimiz kimi, "Jurnalist vəsiqəsinin forması"nın və "Jurnalist vəsiqəsinin verilməsinə və ya dəyişdirilməsinə görə ödənişin məbləği və həmin vəsaitdən istifadə Qaydası"nın təsdiq edilməsi haqqında Nazirlər Kabineti qərar alıb. Bəs, Jurnalist vəsiqələri hansı jurnalistlərə şamil olunur? Vəsiqəsi olmayan jurnalistlər jurnalist kimi fəaliyyət göstərə biləcəkmi? SİA mövzu ilə bağlı media ekspertləri arasında sorğu keçirərək onların fikirlərini öyrənib.**




**Mətbuat Şurasının İdarə Heyətinin üzvü Aqil Ələsgər:** "Media Reyestri ilə bağlı cəmiyyətdə bir çox situasiyalar formalaşdırılır.



Xüsusilə həm ölkə xaricindən, həm də bu günə qədər leqal fəaliyyət göstərməyən qurumlar bu məsələnin üzərində ciddi şəkildə bildirirlər ki, jurnalist sayılmayacaqlar. Xeyr, Media Reyestri ilə bağlı MEDİA agentliyinin verdiyi açıqlamada da açıq şəkildə göstərilir ki, bu imperativ xarakter daşımır. Bu sadəcə olaraq həmin jurnalistin Media Reyestrində qeydiyyatdan keçdiyini göstərəcək. Eyni zamanda, həmin jurnalistə bir sıra əlavə imtiyazlar verəcək. Məsələn, ipoteka məsələsi. Çünki hüquqi cəhətdən jurnalistin bir sıra hüquqları Media Reyestrində qeydiyyatdan keçdikdən sonra daha çox tənzimlənəcək və jurnalist bu vəsiqə ilə daha çox qazanacaq. Vəsiqə ona hər hansı bir məhdudiyyət gətirməyəcək. Kimsə bu reyestrdən keçmək istməsə belə, jurnalist kimi fəaliyyətini davam etdirə bilər. Redaksiyada bundan imtina edən əməkdaşının qərarına hörmətlə yanaşmalıdır. O baxımdan bu məsələni dramatikləşdirmək yersizdir.

Hesab edirəm ki, bu gün Azərbaycan mediasının qarşısında çox mühüm taleyüklü məsələlər var. Təəssüf ki, bəzi dairələr, bu zamana qədər qeyri-leqal fəaliyyət göstərmiş şəxslər Media Reyestri və leqallaşmasını qəbul etmək istəmirlər. Onlar bu məsələdə belə bir mövqe tuturlarsa, bizim də mövqeyimiz ondan ibarət olmalıdır ki, qanunvericilik əslində jurnalistlərin xeyrinədir. Jurnalistlər bu məsələdə təşəbbüskar olmalıdırlar ki, onların rəhbərləri reyestrdən keçmələrini təmin etsinlər. Artıq mediada qara buxalteriya dönəmini arxada qoymaq lazımdır. Bunda israr etmək çox yersizdir".

**Mətbuat Şurasının İdarə Heyətinin üzvü, Əməkdar jurnalist Azər Həsrət:** "Jurnalist vəsiqələri



konkret olaraq qaydalarda göstərilib. Yəni, əmək müqaviləsi, yaxud fərdi şəkildə fəaliyyət göstərən jurnalistlərə veriləcək. Onun alınması üçün müvafiq redaksiyalar müraciət edəcək. Hər vəsiqə 20 manat rüsum ödənməklə alınacaq. Burada çətin bir prosedur nəzərdə tutulmayıb. Hər şey qaydasında olacaq və heç bir problem gözlənilmir.

Vəsiqəsi olmayanların jurnalist kimi fəaliyyət göstərməsinə gəlincə, jurnalistika azad bir məşğuliyyət sahəsidir. İstənilən şəxs bu məsələ ilə məşğul ola biləcək. Yəni, heç kim heç kimə "Jurnalistika ilə məşğul ola bilməzsən" deyə yasaq tətbiq edə bilməz. Zatən Azərbaycan Qanunvericiliyi də bunu nəzərdə tutmur.

Sadəcə bu vəsiqənin ortaya çıxması nədən qaynaqlanır və niyə belə bir zərurət yaranıb? Bu suala cavab vermək lazımdır. Cəmiyyəti də çaşdıran budur ki, niyə belə bir vəsiqə olmalıdır? Azərbaycanda jurnalistikadan sui-istifadə edənlərin sayı həddən artıq çoxdur və bunu bir yolla tənzimləmək zərurəti yaranıb. İllərlə müxtəlif üsullar təklif edildi, lakin nəticə olmadı. Ona görə belə bir yola müraciət edilib. Bunun özünü nə qədər doğruldacağı da zamanla görünəcək.

Jurnalistikanın hörmətinin özünə qaytarılması prosesi gedir. Nüfuzun bərpası üçün bu üsullara əl atılır. Əslində jurnalistikada arzuolunmaz vəziyyət olmasaydı bu addımlara ehtiyac qalmazdı. Amma biz məcburuq ki, jurnalistikada haqqı nahaqdan ayıraq. Ona görə də dövlət, yaxud MEDİA agentliyi bu cür təşəbbüslə çıxış edib.

Mən, vahid vəsiqənin tətbiq olunmasının tərəfdarıyam. Amma bir daha qeyd edim ki, vəsiqəni almayanların jurnalistika ilə məşğul olmasına heç nə əngəl deyil. Sadəcə onlar vəsiqənin tanıdığı imtiyazlardan istifadə edə bilməyəcəklər".

**Jurnalist Ekspert Mərkəzinin sədri Ceyhun Musaoğlu:** "Jurnalist vəsiqələri Media Reyestrinə daxil olan jurnalistlərə və media orqanlarının rəhbərlərinə veriləcək. Lakin, reyestrə daxil olmayanlar da öz redaksiyaları daxilində işçilərinə vəsiqə verə bilərlər.



Reyestrə daxil olanlara veriləcək jurnalist vəsiqələrinin üstünlüyü barədə hələ ki, heç bir məlumat yoxdur. Vəsiqəsi olmayan jurnalistlər də təbii ki, jurnalist kimi fəaliyyət göstərməyə davam edə biləcək. Hər bir redaksiya öz əməkdaşına vəsiqə verə bilər".

**"7NEWS.az" xəbər saytının rəhbəri, internet-media ekspert Səbuhi Abbasov:** "Bildiyimiz kimi, Azərbaycanda son bir ildə media ilə bağlı islahatlar həyata keçirilir. MEDİA agentliyinin yaranması və bütün media rəhbərləri ilə görüşü, onların təkliflərini dinləməsi, beynəlxalq aləmdə media ilə bağlı baş verən yeniliklər, trendlər, medianın inkişafını təmin edəcək amillər nəzərə alınmaqla böyük işlər həyata keçirilib. Bütün bunlar Azərbaycanda medianın yeni bir mərhələyə qədəm qoyduğunu əyani şəkildə sübut etdi. Ancaq işlər bununla yekunlaşmır. Böyük işlər hələ irəlidədir.

MEDİA agentliyinin verdiyi jurnalist vəsiqələri Media Reyestrinə



düşən jurnalistlərə şamil edilir. Bu o demək deyil ki, yerdə qalanlar jurnalist kimi fəaliyyət göstərə bilməyəcək. MEDİA agentliyi heç bir halda Azərbaycanda medianın inkişafını senzuralaşdırma niyyətində deyil. Əksinə, medianın daha peşəkar səviyyədə fəaliyyətini stimullaşdıracaq addımlar atmaqla məşğuldur.

Media Reyestrinin yaradılması birmənalı şəkildə jurnalistlərin həm sosial, həm maddi durumunun yaxşılaşdırılması, reklam mühitinin sağlamlaşdırılması Media Reyestrinə düşən jurnalistlər üçün verilən əlavə öhdəliklərdir. Media Reyestrinə düşmək üçün jurnalistika sahəsində peşəkar fəaliyyət göstərmək lazımdır. Peşəkarlıq müqabilində isə dövlət tərəfindən jurnalistlərə əlavə güzəştlər olunacaq. Ən çox müzakirə olunan isə güzəştli ipoteka verilməsidir. Bu çox böyük bir məsələdir. Çünki jurnalistlərin çoxunun mənzil şəraiti bərbad durumdadır".

**Jurnalist Araşdırmaları Mərkəzinin sədri, "Yenisabah.az" saytının baş redaktoru Seymur Verdizadə:** "Media Reyestrindən keçən jurnalistlər vəsiqə ala biləcəklər. Həmin jurnalistlər həm ayrı-ayrı KİV-lərdə, həm də müstəqil fəaliyyət göstərə bilərlər. Qanunda bununla bağlı hər hansı məhdudiyyət yoxdur. Əsas odur ki, şəxs jurnalist fəaliyyəti ilə məşğul olsun və Media Reyestrindən keçsin.

Media Reyestrinin yaradılmasını müsbət qarşılayıram. Azərbaycanda jurnalist adına iddia edən minlərlə adam var. Qeyri-rəsmi məlumatlara görə, bu rəqəm 30 minə çatır? Azərbaycanda 30 min peşəkar jurnalist varmı? Əlbəttə, yox. Deməli, ölkədə minlərlə insan cibində saxta jurnalist vəsiqəsi gəzdirərək, dələduzluqla, reketliklə məşğul olur. Ümid edirəm ki, Media Reyestrinin yaardılması



bu cür neqativ halları ortadan qaldıracaq.

Azərbaycanda media mühitinin saflaşmasına ehtiyac var. Bu istiqamətdə atılan bütün addımları, görülən işləri alqışlamaq lazımdır".

***Ayşən Vəli***

# Xaricdə təhsil almaq istəyən gənclər hansı qaydaları bilməlidir?

*EKSPERT AYDINLIQ GƏTİRDİ*

**"Dövlət tərəfindən bu vaxta qədər xaricdə təhsillə bağlı bəzi dövlət proqramlar təşkil olunub. Sonuncu belə proqram Azərbaycan Respublikasının Prezidentinin 2022-ci il 28 fevral tarixli 3163 nömrəli sərəncamda nəzərdə tutulub. Gənclər bu proqramlardan faydalanmaq üçün mütləq qaydada müvafiq tələblərə cavab verməlidir". Bu fikirləri SİA-ya açıqlamasında təhsil eksperti Elçin Əfəndi bildirib.**



O qeyd edib ki, əgər hər hansı bir gənc xaricdə təhsil almaq istəyirsə dövlət tərəfindən onun bütün xərcləri qarşılanır. Bunun üçün gənclərdən ilk növbədə xarici dil bili-



yi tələb olunur. Həmçinin həmin universitetlərin verdiyi təhsil dövlətimiz üçün prioritet olmalıdır. Yəni həmin ixtisasları bitirən şəxslər Azərbaycan dövlətinə müəyyən qatqılar verə bilsin. O nöqteyi-nəzərdən İELTS, TOEFL və digər xarici dil biliklərinin olması onların əlavə üstünlüyüdür.

Sonuncu dövlət proqramında 2000 nəfər tələbənin xaricdə təhsil alması üçün dövlət büdcəsindən vəsait ayrılıb. Burada 80 faiz magistratura pilləsi üçün, 20 faiz isə bakalavr pilləsi üçün yer ayrılıb. Amma burada tələb ondan ibarətdir ki, gənclər təhsil almaq istədikləri universitetlər haqqında məlumat əldə etməlidirlər. Təhsil almaq istədikləri universitet dünya reytinq siyasında ilk 500-ə düşürsə tələbə dövlət proqramı ilə təhsil ala bilər. Qeyd edim ki, bununla bağlı Prezident sərəncamında namizədlərin dövlət imtahanından bəzi istiqamətlər üzə 400 bal, bəzi istiqamətlər üzrə isə 500 bal toplaması tələb olunur. Bu da təbii ki, ixtisaslara görə müəyyən edilir.

Magistratura pilləsi üzrə təhsil almaq istəyən tələbələr təhsili başa vurduqdan sonra ölkəyə qayıtmalıdır və qayıtdıqdan sonra mütləq qaydada dövlət tərəfindən işlə təmin olunur. Dövlət proqramı ilə xaricdə təhsil almaq istəyən gənclərin xarici dil səviyyəsi ən azı mütləq şəkildə C1 olmalıdır. C1 sertifikatı olan tələbələr xaricdə təhsil almaq üçün dövlət proqramına baş vura bilərlər".

***Abutel***

# Vətən müharibəsinin 18-ci günü: güc və birliyin qələbəsi

## *İlham Əliyev: "Xain hücumlar bizim iradəmizi qıra bilmədi"*



14 oktyabr 2020-ci il. ”Rəşadətli Azərbaycan Ordusu tərəfindən Füzuli rayonunun Qaradağlı, Xatunbulaq, Qarakollu, Xocavənd rayonunun Bulutan, Məlikcanlı, Kəmərtük, Təkə, Tağaser kəndləri işğaldan azad edilib. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!”. Bu fikirləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev özünün rəsmi ”Twitter” səhifəsində yazırdı. Bəli, həmin gün 14 oktyabr tarixində 30 ilə yaxın Ermənistanın işğalı altında olan əzəli torpaqlarımız Füzuli rayonunun Qaradağlı, Xatunbulaq, Qarakollu kəndləri, Xocavənd rayonunun Bulutan, Məlikcanlı, Kəmərtük, Təkə, Tağaser kəndləri işğaldan azad olundu və tariximizdə yeni səhifə yazıldı. 2020-ci ilin 13 oktyabr tarixində Prezident İlham Əliyev Türkiyənin ”Haber Türk” telekanalına müsahibəsində ”Paşinyanın Şuşada sərxoş vəziyyətdə rəqs etməsi və digər təhqirləri, həqarəti Azərbaycan xalqını haqlı olaraq hiddətləndirdi. Biz onun bu hərəkətlərinin heyfini bu gün döyüş meydanında alırıq, əvəzini çıxırıq. Azərbaycan əsgəri döyüş meydanında göstərir ki, kim haqlıdır, kim haqsızdır. Biz gücümüzü, xalqımızın iradəsini döyüş meydanında göstəririk. Paşinyanın digər təxribatları da cavabsız qalmır və qalmayacaq. Azərbaycan xalqının ləyaqəti bərpa olunur. Şəhidlərimizin qanı yerdə qalmır və qalmamalıdır”, - deyə bildirmişdir: ”Bu gün azad etdiyimiz şəhərlər, kəndlər Paşinyana və onun kimlərə bizim ən gözəl cavabımızdır. O, artıq anladı ki, kim kimdir. Mən ona xəbərdarlıq etmişdim. Mən ona demişdim ki, bu yol sizi fəlakətə aparacaq. Mən demişdim ki, Azərbaycan xalqının ləyaqəti ilə oynamasın, diqqətli olsun, ehtiyatlı olsun. O zənn edirdi ki, dünya erməniliyi onu müdafiə edəcək, o zənn edirdi ki, böyük dövlətlər gəlib onun yerinə vuruşacaq, bu gün də bunu istəyir”. Paşinyanın Rusiya Prezidenti Vladimir Putinə bir gündə dəfələrlə zəng etdiyini diqqətə çatdıran dövlətimizin başçısı deyib: ”O, telefon zənglərinin bir hissəsi mətbuata verildi, bir hissəsi isə verilmədi. Bizdə məlumat var ki, bu son atəşkəsdən sonra da Paşinyan Putinə telefonla zəng etmişdir. Onun bu hərəkətləri, əlbəttə, göstərir ki, bu adam panikaya qapılıb, təşviş içindədir, özünü itirib. Azərbaycan Ordusu döyüş meydanında düşmənə elə sarsıdıcı zərbələr endirir ki, artıq onlar qeyri-adekvat duruma düşüblər”.

### ”MÜSTƏQİLLİK ŞƏRAİTİNDƏ YENİ VƏTƏNPƏRVƏR, HƏM MƏNƏVİ, HƏM DƏ FİZİKİ CƏHƏTDƏN GÜCLÜ İNSANLAR YETİŞİBDİR”

2020-ci ilin sentyabrın 27-də Ermənistan ordusunun təxribatlarına qarşı Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə başlayan genişmiqyaslı Vətən müharibəsi tariximizə qələbələr yazmaqda davam edirdi. Bu qürurlandırıcı xəbərlər xalqımızın həyatında mühüm hadisəyə çevrilirdi. Qələbə ardınca qələbə sorağı. Təbii ki, uğurun-uğura calandığı bir zamanda Ermənistana bunu həzm etmək çətinləşirdi. Həmişə olduğu kimi təxribatlar törətmək, iftira xarakterli məlumatlar yaymaq işini davam etdirirdi. 30 ilə yaxın bir zamanda beynəlxalq hüququn tələb və təkidlərinə məhəl qoymayan Ermənistan bu gün döyüş meydanında uduzduğunu aydın dərk etdiyindən beynəlxalq konvensiyalara zidd topladığı silahlarla Gəncə, Tərtər, Mingəçevir kimi yerlərdə də mülki əhalinin kompakt yaşadığı ərazilərdə raket zərbələri endirməsi, Ermənistan hökumətinin təcavüzkar, terrorçu simasını bir daha ortaya qoymuş oldu. Təbii ki, bu və ya digər amillər Azərbaycanı haqq savaşından çəkindirmir və Azərbaycan Ordusu öz torpaqlarının azad olunması məqsədi ilə müharibəsini davam etdirirdi. Döyüş meydanında sarsıdıcı məğlubiyyətə uğrayan Ermənistanın cəbhə xəttindən uzaqda yerləşən yaşayış məntəqələrini və mülki obyektləri hədəfə alması dünyanın bir çox ölkələrindən ölkəmizə ezam olunmuş KİV nümayəndələrinin də gözü qarşısında baş verirdi. Ermənistanın atəşkəsə əməl etməməsi hiddət doğururdu. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev müsahibəsi zamanı Ona ünvanlanan ”Cənab Prezident, hazırda Ermənistan Azərbaycanın yaşayış məntəqələrini atəşə tutur. Azərbaycan isə əməliyyat zamanı yalnız hərbi obyektləri hədəfə alır, ancaq Qarabağ bölgəsindəki ərazilərdə əməliyyat həyata keçirir. Amma Ermənistan Gəncəni, Mingəçeviri, Bərdəni, mülki əhalinin yaşadığı digər yerləri hədəfə alır. Bundan məqsəd panika, xaos və qorxu yaratmaqdırmı? Siz hazırda Azərbaycan xalqının bu psixologiyasını necə görürsünüz?” sualını belə cavablandırmışdı: ”Bu gün Azərbaycan tam başqa bir ölkədir. Bu gün yeni nəsil yetişib. Müstəqillik şəraitində yeni vətənpərvər, həm mənəvi, həm də fiziki cəhətdən güclü insanlar yetişibdir. Eyni zamanda, yaşlı nəsil də bu gün tam başqa bir dünyagörüşünə malikdir. Dövlətimizin güclü iradəsi var, güclü ordumuz var. Məhz buna görə, bu xain hücumlar bizim iradəmizi qıra bilmədi. Erməni vəhşiliyindən ən çox zərər çəkən Tərtər şəhəridir. Tərtər şəhərinə minlərlə mərmi düşüb. Tərtər balaca bir şəhərdir, Gəncə kimi böyük şəhər deyil. Bu gün səhər mənə verilən məlumata görə, 100-dən çox mərmi səhər saat 7-dən indi saat 10-un yarısıdır, 2 saat yarım ərzində mindən çox mərmi Tərtər şəhərinə düşüb. Amma tərtərlilər bir dağ kimi, bir yumruq kimi dayanıblar, heç bir yerə getmirlər və deyirlər, öldü var, döndü yoxdur. Həmçinin, Ağdamda da, Goranboyda da, Ağcabədidə də, cəbhə xəttinə yaxın olan bütün başqa bölgələrdə də belədir. Onlar düşmənlə üz-üzə yaşamağa öyrəşiblər bu xain hücumlar bizi zərrə qədər də yolumuzdan döndərə bilməz. Ermənistanın digər bir məqsədi bizi dayandırmaqdır. Onlar zənn edirlər ki, bu xain zərbələr bizi dayandıracaq. Bizi heç kim dayandıra bilməz. Çünki biz haqq yolundayıq, bu yolu davam edirik və uğurla davam edirik. Bayrağımızı qaldırırıq, torpaqlarımızı azad edirik və sona qədər bu yolu gedəcəyik!”



### ERMƏNİSTANIN NÖVBƏTİ CİNAYƏTLƏRİ - HUMANİTAR ATƏŞKƏSƏ ƏMƏL ETMİR

Vətən müharibəsi dövründə də davam edən Ermənistanın növbəti cinayətləri, mülki əhaliyə qarşı edilən terrorlar çirkin siyasətin məntiqi idi. Belə ki, 2020-ci ilin oktyabrın 10-da Rusiya Federasiyası, Azərbaycan Respublikası və Ermənistan Respublikasının Xarici İşlər nazirləri humanitar atəşkəs elan edilməsi haqqında bəyanat qəbul etmişdi. Lakin Ermənistan Respublikası nəinki buna əməl etməyib, əksinə, oktyabrın 11-də onu ciddi şəkildə pozaraq öz ərazisindən Gəncə və digər şəhərlərimizi ”SKAD” tipli raket kompleksindən atəşə tutmuşdu. Həmin tarixdə Gəncəyə atılan ballistik raket nəticəsində 10 mülki şəxs həyatını itirib, 34 mülki şəxs isə yaralanıb. Yaralanan insanlardan 9-u uşaq, 10-u qadındır. Azərbaycan Respublikasına qarşı Ermənistanın təcavüzünün davamlılığını göstərən bu təxribat müharibə cinayətləri olmaqla, Ermənistanın, ilk növbədə, BMT Nizamnaməsini, Müharibə aparılmasının adət və qaydalarını müəyyən edən Haaqa Konvensiyalarını, Müharibə qurbanlarının müdafiəsi haqqında 1949-cu il Cenevrə konvensiyalarını və həmin konvensiyalara edilən 1977-ci il tarixli Əlavə protokolları, Beynəlxalq Cinayət Məhkəməsinin Statutunu, o cümlədən ayrı-ayrı silah növlərindən istifadə ilə bağlı beynəlxalq müqavilələrlə müəyyən edilmiş hüquq normalarını, həmçinin mülki əhalinin hərbi əməliyyatların təhlükəsindən müdafiə edilməsi ilə bağlı ümumi hüquq prinsipini kobud şəkildə pozulması deməkdir.

### 14 OKTYABR TARİXİNƏDƏK 40-A YAXIN ÜMUMİ TƏHSİL MÜƏSSİSƏSİ DÜŞMƏN TƏCAVÜZÜNƏ MƏRUZ QALMIŞDI

Bütövlükdə Ermənistanın bu addımı müharibə dövründə mülki əhalinin müdafiəsinə dair 1949-cu il Cenevrə Konvensiyasının və bu cür silahların mülki əhaliyə qarşı istifadəsini qadağan edən beynəlxalq sazişlərin müddəalarına ziddir. Ermənistanın bu cür silahlarla təchiz edənlər də həmin silahların qanunsuz istifadəsinə görə məsuliyyət daşıyırlar. Oktyabrın 14-də səhər saatlarından başlayaraq Tərtər, Ağdam və Ağcabədi rayonlarının ərazisi artilleriya atəşinə tutulmuşdu. Tərtər rayonunun müxtəlif istiqamətlərdən ağır artilleriyadan atəşə tutulması nəticəsində Dəyərli kənd ümumi orta məktəbinə ziyan dəymiş, məktəbin həyətinə top mərmisinin düşməsi nəticəsində təhsil müəssisəsinin tədris korpusu yararsız hala düşmüşdü. 14 oktyabr tarixinədək artıq 40-a yaxın ümumi təhsil müəssisəsinə düşmən təcavüzü nəticəsində zərər dəymişdi. Ermənistanın humanitar atəşkəsi pozmasına baxmayaraq, rəşadətli Azərbaycan Ordusunun hər gün yeni kəndləri və şəhərləri işğaldan azad etməsi bizi Zəfər tariximizə yaxınlaşdırırdı.

***Zümrüd BAYRAMOVA***

# PRAQA GÖRÜŞÜ - QALİB LİDERİN NÖVBƏTİ DİPLOMATİK UĞURU

**Ermənistanla münasibətlərin normallaşdırılması üzrə aparılan danışıqların daha bir raundu Azərbaycanın qələbəsi ilə başa çatdı**



Böyük mütəfəkkir Viktor Hüqo vaxtilə yazırdı: "Əsl Liderin ömrünün yarısı Vətənə, digər yarısı da xalqa xidmət etməkdən ibarətdir". Bəli, bu gün müstəqil Azərbaycanı güclü edən, onu sabitlik məkanına çevirən əsas amil də məhz xalqımızın ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirən Heydər Əliyev ideyalarına olan sonsuz sədaqətidir. Və bu gün cənab İlham Əliyev ulu öndərimizin "xalq dövlət üçün yox, dövlət xalq üçün olmalıdır" fikirlərini reallığa çevirərək bir daha isbat etdi ki, O, məhz Vətəninin, xalqının rifahı üçün yaşayan Qalib ölkənin Qalib Liderinin "Dəmir yumruq" siyasəti ilə 30 illik torpaq həsrətinə 44 gündə son qoydu. Dövlət başçımız İlham Əliyevin söylədiyi kimi: "30 ilin əziyyəti, 30 ilin ümidsizliyi, 30 ilin əzabları xalqımızı sındırmadı, iradəmizə heç bir mənfi təsir göstərmədi. Əksinə, daha da bütövləşdik, daha da mətinləşdik, daha da gücləndik, özümüzü toparladıq və sonunda Zəfər bizim oldu".

Bəli, bütün bu uğurlar, məhz ölkə Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev cənablarının qətiyyətli addımı, mövqeyi və nəhayət yürütdüyü "Dəmir yumruq" siyasəti dayanır. Məhz Azərbaycan Prezidenti İlham Əliyevin hər səfəri, o cümlədən Praqaya növbəti səfəri kifayət qədər uğurlu oldu. Həm Azərbaycan-Avropa İttifaqı münasibətləri, həm də Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması prosesi kontekstində dövlətimizin başçısının keçirdiyi görüşlər, aparılan müzakirələr bir daha təsdiqləyir ki, ölkəmizin beynəlxalq müstəvidə mövqeləri əhəmiyyətli dərəcədə güclənməkdədir. Belə ki, Prezident İlham Əliyevin "Avropa Siyasi Birliyi" Zirvə Toplantısına dəvət olunması və iştirakı dövlətimizin başçısının beynəlxalq müstəvidə yüksək nüfuzunun göstəricisidir. Ümumilikdə, "Avropa Siyasi Birliyi" qitənin ölkələri arasında siyasi əlaqələndirmə platformasıdır. Birliyin məqsədi ümumi maraq doğuran məsələlərin həlli üçün siyasi dialoqu və əməkdaşlığı inkişaf etdirmək, Avropa qitəsinin təhlükəsizliyini, sabitliyini və rifahını gücləndirməkdir. 44 ölkənin dövlət və hökumət başçılarının iştirakı ilə ilk dəfə keçirilən "Avropa siyasi birliyi" Zirvə Toplantısı Avropa ölkələrinin liderlərini bərabərhüquqlu və birlik ruhunda bir araya gətirib. Belə ki, avqustun 31-də Brüsseldə keçirilən dördüncü üçtərəfli görüş də həmişə olduğu kimi yenə də Azərbaycanın şərtləri keçərli oldu və sülh prosesi ilə bağlı real addımlar atmağın mütləqliyini ortaya qoydu. Artıq iki ilə yaxın müddətdə hər cür hiylə, təxribatçı əməllərlə sülhə nail olmağı yubadan Ermənistanın bundan yayınmaq yolları bağlandı və o, sülh razılaşmasına məcbur edildi. Çünki Qalib komandan kimi şərtləri də Qalib liderin diktəsi keçərlidir. Və dördüncü Brüssel görüşündə Prezident İlham Əliyev bir daha göstərmiş oldu ki, Qarabağ və Şərqi Zəngəzurda hər mənada üstünlük Azərbaycandadır və qalib ölkə 10 noyabr Üçtərəfli Bəyanatında nəzərdə tutulmuş öhdəliklərini vaxtından əvvəl reallaşdırır. Bir sözlə, dördüncü Brüssel görüşü dövlət başçımız İlham Əliyevin siyasi qələbəsinin növbəti və vacib mərhələsi idi. Bax, budur, həqiqət! Və bu gün Qarabağa hansısa statusun verilməsi ümumiyyətlə, mümkün deyil. Bunun heç bir siyasi və ya hüquqi əsası yoxdur.

## Prezident İlham Əliyev regionda yeni reallıqların müəllifidir

Belə ki, Praqada keçirilən görüşdə ən diqqət mərkəzində olan məsələ Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması ilə bağlı aparılan danışıqlardır. Belə ki, Azərbaycan Prezidenti İlham Əliyev, Fransa Prezidenti Emmanuel Makron, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel və Ermənistanın baş naziri Nikol Paşinyan arasında iki dəfə görüş keçirilib. Görüşlərin nəticəsi olaraq bəyanat qəbul olunub. Bəyanatda deyilir ki, Ermənistan və Azərbaycan BMT Nizamnaməsinə və 1991-ci Alma-Ata bəyannaməsinə sadiqliyini bir daha nümayiş etdirərək bir-birinin ərazi bütövlüyü və suverenliyini tanıyır. Tərəflər bildiriblər ki, bu, delimitasiya üzrə komissiyanın fəaliyyəti üçün əsasdır və komissiyanın növbəti iclası oktyabrın sonunda Brüsseldə keçirilməlidir. Ermənistan Azərbaycanla sərhədə Avropa İttifaqının mülki missiyasının göndərilməsinə razılıq verib. Azərbaycan da bu komissiya ilə əməkdaşlığa razılıq verib. Missiya işini oktyabrda başlayıb, 2 ay müddətinə başa çatdıracaq. Bir sözlə, bu görüş regionda sülhün və əməkdaşlığın təmin olunması istiqamətində növbəti addımdır. Prezident İlham Əliyev regionda yeni reallıqların müəllifidir və postmünaqişə mərhələsinin ümumi geosiyasi ab-havasının yenilənməsində əsas söz sahibidir. Həmçinin Azərbaycan diplomatiyası hər bir görüşdə müsbət məzmunlu sənədlərin qəbul edilməsində fəallıq göstərərək, regional əməkdaşlıq, sabitlik və inkişaf üçün təşəbbüslər irəli sürür. Həmçinin, Azərbaycan regionda kommunikasiya xətlərinin, həmçinin Zəngəzur dəhlizinin açılmasında maraqlıdır. Dövlətimizin başçısı İlham Əliyev hərbi əməliyyatlar bitdikdən sonra hər bir çıxışında qeyd edir ki, artıq münaqişə öz həllini tapıb, Azərbaycan sülh və təhlükəsizlik fonunda yeni səhifə açmağa hazırdır. Ümumiyyətlə, Azərbaycan Prezidenti İlham Əliyev bütün müsahibələrində, o cümlədən Praqada Azərbaycan televiziya kanallarına müsahibəsində də Ermənistan tərəfindən xoş məram olarsa, sülh müqaviləsinin ilin sonunadək imzalana biləcəyini bildirdi və Qarabağda yaşayan ermənilərlə bağlı dövlətimizin aydın mövqeyini ifadə etdi.

## Azərbaycan indiyə kimi nəyi diktə edibsə, o icra edilib, öhdəliklərdən qaçmaq mümkün deyil

Bəli, bu gün qalib lider Prezident İlham Əliyev irəli sürdüyü şərtlər qəbul edilir. Belə olan halda Ermənistan ağıllarını başlarına yığıb bilməlidirlər ki, Azərbaycan indiyə kimi nəyi diktə edibsə, o icra edilib, öhdəliklərdən qaçmaq mümkün deyil. Şərtlərə əməl etmək lazımdır və həmin şərtlərə əməl etməsə, bu, ona və Ermənistana gələcəkdə çox baha başa gələ bilər. Daha dəqiq desək, "Dəmir Yumruğ"un növbəti zərbəsi ilə qarşılaşacaqlar. Dövlət İlham Əliyevin söylədiyi kimi, 30 ilin əziyyəti, 30 ilin ümidsizliyi, 30 ilin əzabları xalqımızı sındırmadı, iradəmizə heç bir mənfi təsir göstərmədi. Əksinə, daha da bütövləşdik, daha da mətinləşdik, daha da gücləndik, özümüzü toparladıq və sonunda Zəfər bizim oldu. Bəli, üçtərəfli bəyanatın imzalanması ilə münaqişənin hərbi mərhələsi başa çatdı. Ağdam, Laçın, Kəlbəcər rayonları qan tökülmədən qaytarıldı, status-kvo, "Dağlıq Qarabağ" adlı ərazi vahidi ləğv edildi. Və beləliklə, bu qələbənin nümayişi 10 dekabr 2020-ci ildə keçirilən Zəfər Paradında bir daha dünyaya göstərildi. Bu Paradla Qarabağ Azərbaycandır! nidasının təntənəsi, "Dağlıq Qarabağın" statusunun olmayacağının Azadlıq meydanında nümayişi, işğalçı Ermənistanın yeni erməni dövlətinin yaradılması planlarının üstündən birdəfəlik xətt çəkməsinin nümayişi idi. Çünki bu gün regionda Azərbaycanın maraqlarına cavab verən yeni siyasi reallıq yaranıb, ərazi bütövlüyümüz təmin olunub və heç bir statusdan söhbət gedə bilməz! Bu isə Azərbaycanın tam və qeyd-şərtsiz qələbəsinin əyani sübutudur. Bütün bu söylənilənlərdən belə bir qənaətə gəlmək mümkündür ki, "Nə qədər mən Prezidentəm, heç bir statusdan söhbət gedə bilməz!" deyən dövlətimizin başçısı, Ali Baş Komandan İlham Əliyev nəyi necə və nə zaman etməyi yaxşı bildiyini bir daha nümayiş etdirdi. Və "Ermənistanın hünəri varsa, tanısın "Dağlıq Qarabağ respublikası"nı. Ermənistan hakimiyyəti, tanıyın onu. Bu gün tanıyın, tanımırsınızsa, deməli qorxursunuz. Gedin, ağlınızı başınıza yığın!" - bu Azərbaycan Prezidentinin sözü, tələbidir! Və 2016-cı ildən bu yana Azərbaycanı işğalla barışdırmağın qeyri-mümkünlüyünü idrak etməyiblərsə, onlar fil qulağında yatıb.Qalib Liderimiz, Prezident İlham Əliyevin növbəti mesajı: "Dağlıq Qarabağ respublikası" yoxdur. Qoy, erməni xalqı özünü aldatmasın. Biz bütün qalan şərtləri də rədd edirik, o kağızı da zibil qutusuna atırıq. Ancaq erməni xalqı yaxşı düşünsün, yaxşı fikirləşsin. Əgər onlar bundan sonra da cinayətkarların girovu kimi yaşamaq istəyirlərsə, onda indiki hakimiyyətin ağılsız və təhlükəli addımlarına göz yumsunlar". Yenə də Azərbaycan Prezidentinin nitqindən: "Onlar başa düşməlidirlər ki, erməni silahlı qüvvələri bizim torpaqlarımızdan çıxmasa, sülh olmayacaq və onlar özləri peşman olacaqlar. Nə qədər ki, gec deyil, erməni silahlı qüvvələri bizim torpaqlarımızdan çıxmalıdır. Bunu beynəlxalq hüquq, BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi tələb edir.

Erməni silahlı qüvvələri Azərbaycan torpaqlarından dərhal və qeyd-şərtsiz çıxarılmalıdır!".

## Azərbaycan bölgədə sülh və sabitliyin təminatçısıdır

Bəli, 2020-ci il 10 noyabr üçtərəfli bəyanatla Azərbaycan Prezidenti İlham Əliyev yenə də diktə edən tərəfdir. Azərbaycan Prezidenti haqlı olaraq dəfələrlə bəyan edir ki, mövcud durumda situasiyanı Azərbaycan müəyyənləşdirir. İndi şərtləri cənab İlham Əliyev diktə edir: Paşinyan rejiminə güzəşt yoxdur. İllərdir sülh istəyən, humanist siyasət aparan Azərbaycanla artıq kimsə diktə dili ilə danışa bilməz. Çünki Azərbaycan hər zaman sülhün tərəfdarı olduğunu dünyaya bəyan edib. Ermənistan isə status-kvonun saxlanması üçün müxtəlif bəhanələr gətirib danışıqlar masasına oturmurdu. İndi Paşinyan danışıq aparmaq üçün açıq-aşkar yalvarır. Ancaq Azərbaycan Prezidenti onunla nəinki bir masada oturmaq, heç danışıq aparmaq belə istəmir. Çünki danışıqlara Paşinyanın "Qarabağ Ermənistanındır" sərsəm fikrindən sonra xitam verilib. Rusiya Federasiyasının vasitəçiliyi ilə baş tutmuş Azərbaycan Respublikası və Ermənistan Respublikası xarici işlər nazirlərinin Moskva görüşü nəticəsində 10 oktyabr 2020-ci il tarixi saat 12.00-dan etibarən humanitar atəşkəsə riayət olunması razılığının əldə olunmasına baxmayaraq, Ermənistan silahlı qüvvələri bu razılığı kobud şəkildə pozmaqla bir daha riyakarlığını nümayiş etdirdisə, Azərbaycan dövləti də haqq yolunda, Vətən yolunda mübarizə apardığını, erməni hiyləsinin, riyakarlığını, normal dövlət ola bilməməsini bir daha dünyaya nümayiş etdirdi. Bununla bir daha sübut olundu ki, humanitar məqsədə xidmət edən atəşkəslə yanaşı, ehtiyat tədbirləri də paralel aparılmalıdır. Artıq atəşkəs danışıqlarında, digər ikitərəfli, çoxtərəfli platformalarda şərtləri məhz Azərbaycan müəyyən edir. Bu, o deməkdir ki, Azərbaycana qarşı hər hansı şərtlərin irəli sürülməsindən söhbət gedə bilməz və atəşkəs istəyən tərəf beynəlxalq hüquq normalarına əməl etməlidir. Bu sadə gerçəkliyi artıq hamı başa düşməlidir.Paşinyan başa düşməlidir ki, monoetnik Ermənistandan fərqli olaraq, multikultural dəyərlərə, tolerantlığa və hər bir xalqın milli-mədəni irsinə hörmət prinsiplərinə sadiqdir. Prezident və Ali Baş Komandan İlham Əliyev Şuşadan regiona və dünyaya etdiyi çağırışları bir daha onu sübut edir ki, Azərbaycan Prezidenti rəhbəri olduğu ölkə bölgənin təhlükəsizliyi, sabitliyi və inkişafı üçün sülhə hazır olmaqla bərabər, həm də sülhün təminatçısı kimi çıxış etmək iqtidarındadır. 2021-ci il iyunun 15-də imzalanan Şuşa Bəyannaməsi bunun təsdiqidir.

## Revanşistlər nəticə çıxarmasalar, dəmir yumruq işə düşəcək

Bəli, belə olan halda, ermənilər anlamalıdırlar ki, sülh onların yeganə çıxış yoludur. Və bu gün havadarlarına arxalanaraq ölkəmizi təxribatlara çəkib növbəti müharibə ilə "hədələyən" revanşistlər anlamırlar ki, artıq Azərbaycan bütün gedişlərini kökündən dəyişib və bölgədə baş verən istənilən hadisəyə diqqət yetirir, hər şeyə nəzarət edir. İndi diktəni edən ölkə Azərbaycandır və bölgədə yenidən erməni faşizminin baş qaldırmasına heç vaxt imkan verməz. İstənilən qüvvənin Qarabağda Azərbaycan əsgərinə qarşı edəcəyi təxribat xarakterli əməl cavabsız qalmayacaq. Və bu gün Ali Baş Komandanın bəyanatlarına, sərt xəbərdarlıqlarına əhəmiyyət verməyən ermənilər indi qalib sərkərdənin hər bir fikrini, mesajını diqqətlə izləyir və ona uyğun nəticə çıxarırlar. Yaxşı anlayırlar ki, Prezident İlham Əliyevin dediyi söz imzası qədər keçərlidir. Müharibənin gedişatında hər kəs, bütün Ermənistan buna şahidlik edib: "Əgər Ermənistan sərhədlərin müəyyən edilməsi işində yenə də öz köhnə taktikasına qapılsa, vaxt uzatmağa çalışsa, nəticədə özü peşman olacaq. Biz Ermənistanda baş qaldıran revanşist qüvvələrin hərəkətlərinə diqqətlə baxırıq. Onlar da bunu bilsinlər. Bax, o dağın başında mənim sözlərim yazılıb: ""Dəmir yumruq" yerindədir, bunu heç kim unutmasın!".



Bir sözlə, bütün bunlar Azərbaycanın dünyaya nə qədər sülhsevər bir ölkə olduğu bir daha nümayiş etdirir. Beləliklə, Azərbaycan bölgədə davamlı sülh və sabitliyin yaranması üçün təkcə təşəbbüslə çıxış etmir, eyni zamanda, bu məsələdə öz əməli töhfəsini verir. Bu nailiyyətlər isə Prezident, Ali Baş Komandan İlham Əliyevin böyük sərkərdəlik məharəti, güclü iradəsi və qətiyyəti, nəhayət diplmatik siyasətinin reallığıdır.Azərbaycan və Türkiyə dövlət başçıları yalnız yerləşdiyimiz coğrafiyada deyil, bütövlükdə dünyada sülhün və əmin-amanlığın, bərabərhüquqlu əməkdaşlığın, dinc birgəyaşayışın və mehriban qonşuluğun tərəfdarıdır.

Zirvə Toplantısında diqqət çəkən önəmli məqamlardan biri də iki qardaş ölkənin-Azərbaycan və Türkiyə prezidentlərinin birliyini, qarşılıqlı etimad və etibarını ehtiva edən səmimi davranış tərzi idi. Heç şübhəsiz ki, bu tərz bədxahlarımızın və siyasi qısqancların diqqətindən də yayınmırdı. Zirvə Toplantısı bir daha göstərdi ki, ötən illər ərzində ölkələrimizin üzləşdiyi ayrı-seçkiliyə, ikili standartlara və uydurulmuş fobiyalara rəğmən, bu tədbirdə həm də türk dünyasını təmsil edən Azərbaycan və Türkiyə dövlət başçıları yalnız yerləşdiyimiz coğrafiyada deyil, bütövlükdə dünyada sülhün və əmin-amanlığın, qarşılıqlı şəkildə faydalı və bərabərhüquqlu əməkdaşlığın, dinc birgəyaşayışın və mehriban qonşuluğun tərəfdarıdır. Dövlətimizin başçısı tədbir çərçivəsində verdiyi bəyanat və açıqlamaları ilə növbəti dəfə təsdiq etdi ki, Azərbaycan Avropanın enerji təhlükəsizliyi ilə bağlı üzərinə götürdüyü öhdəliklərə sadiqdir, etibarlı tərəfdaş statusu onun siyasi renomesinin ayrılmaz tərkib hissəsidir. Belə ki, Prezident İlham Əliyev oktyabrın 6-da Praqada ölkəmizin televiziya kanallarına verdiyi müsahibədə xüsusi qeyd etdi: "Əgər belə demək mümkündürsə, tale elə gətirdi ki, bizim bütün layihələrimiz hazır olan vaxtda Avropada qaza olan tələbat daha da artdı...Ona görə Avropa İttifaqı ilə imzalanmış Memoranduma əsasən növbəti illərdə biz Avropaya qaz ixracatını ən azı iki dəfə artırmağı planlaşdırırıq. Yəni, əgər keçən il bu, 9 milyard kubmetr idisə, deməli, 2027-ci ildə bu, ən azı 18 milyard kubmetr olacaq, bəlkə də çox... Ona görə Azərbaycan Avropa üçün və təkcə Avropa üçün yox, dünya üçün çox önəmli, strateji enerji tərəfdaşı olacaqdır".

Bir sözlə, görüşdə Prezident İlham Əliyev Ermənistanla sülh müqaviləsinin imzalanması ilə bağlı ölkəmizin irəli sürdüyü təşəbbüsə sadiq olduğunu bir daha bəyan etdi. Dövlətimizin başçısı növbəti dəfə vurğuladı ki, Azərbaycanın təklif etdiyi beş təməl prinsipi beynəlxalq hüquqa və dövlətlər arasında normal münasibətləri tənzimləyən ümumi normalara söykənir: "Çünki bir şeyi artıq bütün dünya ictimaiyyəti açıq dərk edir ki, Qarabağ Azərbaycandır!.. Bu gün dünya birliyi bu həqiqəti artıq nəinki dərk edir, həm də bunu tələffüz edir... Deməliyəm ki, bizim tərəfdən elan edilən beş prinsipə bağlı heç kimin-nə erməni tərəfinin, nə də Avropa İttifaqının heç bir sualı yoxdur. Bu gün Fransa Prezidenti ilə görüş zamanı mən gördüm ki, bu beş prinsip qəbul edilir". Bütövlükdə, Ermənistanla münasibətlərin normallaşdırılması üzrə aparılan danışıqların daha bir raundu Azərbaycanın qələbəsi ilə başa çatdı. Və öz mızın milli maraqlarını bütün beynəlxalq platformalarda məharətlə müdafiə edən Azərbaycan Prezidentinin qətiyyəti bu məkrli addımın qarşısını aldı. Sonda dövlət başçımızın dediyi fikirlər bir daha Qalib liderin dediyi kimi: "Bir daha demək istəyirəm, biz istədiyimizə həmişə nail oluruq. İstədiyimiz də odur ki, bölgədə sülh olsun, əmin-amanlıq olsun, müharibə olmasın, Azərbaycan uğurla inkişaf etsin, xalqımız yaxşı, firavan yaşasın!".

Beləliklə, Praqa görüşündə Azərbaycan öz mövqeyini qətiyyətlə müdafiə etməyi bacaran dövlət kimi, Ermənistanın və tərəfdaşlarının formalaşdırdığı koalisiyaya qarşı açıq mübarizə apardı, öz mövqeyini müdafiə etdi və hər hansı güzəşt ideyasını yaxına belə buraxmadı. Bu, Prezident İlham Əliyevin yürütdüyü siyasətin Avropada növbəti qələbəsi idi. Praqa görüşü göstərdi ki, dövlət başçısının beynəlxalq hüquq və ədalətə əsaslanan balanslaşdırılmış xarici siyasəti Azərbaycanın dünya miqyasında nüfuzunu artıraraq, onu regional gündəmdə həlledici söz sahibi olan ölkəyə çevirib və rəsmi Bakı milli maraqlarına dair məsələlərdə prinsipial mövqeyini heç zaman dəyişməyəcək.

***RƏFİQƏ KAMALQIZI***

## "Səfər Azərbaycan-Qırğızıstan münasibətində çox mühüm səhifədir"

"Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qırğızıstana səfəri ilk dövlət səfəri idi. Bu səfər Azərbaycan-Qırğızıstan münasibətində çox mühüm səhifədir". Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Kamran Bayramov bildirib.



Onun sözlərinə görə, Qırğızıstan səfəri ölkələrimiz arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi ərəfəsində baş verir, eyni zamanda 1997-ci ildə imzalanmış "Dostluq və əməkdaşlıq" müqaviləsinin 25 illiyi ərəfəsində baş verir: "Bu baxımdan bu səfər ölkəmizin Qırğızıstanla olan əməkdaşlığa verdiyi önəmi göstərir. Son zamanlar Azərbaycan Mərkəzi Asiya ölkələri ilə çox sıx əməkdaşlıq edir, dostluq əlaqələrini daha da genişləndirir. Qırğızıstan dövləti Azərbaycan üçün mühüm əhəmiyyət kəsb edir. Qeyd edim ki, aprel ayında Qırğızıstan Prezidenti Sadır Japarov Azərbaycana rəsmi səfər edib və həmin səfər çərçivəsində çox mühüm bəyanatlar səsləndirildi. Eyni zamanda ölkə başçısının Qırğızıstana səfəri zamanı da mühüm bəyanatlar səsləndirildi. İki səfər çərçivəsində 19 sənəd imzalandı və bu Azərbaycan ilə Qırğızıstan arasında əməkdaşlığın bütün sahələr üzrə genişləndirilməsindən xəbər verir. Qırğızıstan Prezidentinin səfəri zamanı "Strateji tərəfdaşlıq haqqında" bəyannamənin imzalanması, eyni zamanda dövlətlərarası şuranın yaradılması haqqında sənədin imzalanması iki dövlət arasında əlaqələrin genişləndirilməsinə dəlalət edir.

Dövlət başçısının indiki səfəri həmin sənədlərin icrasına yönəlikdir. Bu səfər çərçivəsində çox mühüm sənədlər imzalandı, çıxışlar baş tutdu. Siyasi, iqtisadi, turizm, təhsil sahəsi ilə yanaşı mədəni əməkdaşlığa da geniş yer verildi. Mədəniyyət sahəsində bir çox tədbirlər təşkil edilib. Qırğızıstanda Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın görkəmli mütəfəkkiri Nizami Gəncəvinin adını daşıyan məktəblərin açılışı oldu. Eyni zamanada gələcəkdə ölkəmizdə Qırğızıstan mədəniyyət illərinin keçirilməsi planlaşdırılıb.

Azərbaycan Qırğızıstanla strateji əməkdaşlığı olduqca önəm verir. Eyni zamanda bunun səbəblərindən biri də Azərbaycanın regionda artan nüfuzudur. Azərbaycan bir çox beynəlxalq forumlarda, beynəlxalq platformalarda öz mövqeyini ifadə edərkən bir çox dövlətlər ona dəstək göstərir. Qırğızıstan da bu dövlətlərdəndir. Düşünürəm ki, Azərbaycana digər dövlətlərin dəstəyi artacaq. Xüsusilə də bu səfərdən sonra bir çox dövlətlər, həmçinin Qırğızıstan da Azərbacana dəstək verəcək".

***A.İlhamqızı***



# Şəhidlik zirvəsi!

## Ölkəmizin hər yerində Vətən müharibəsi şəhidlərinin əziz xatirəsi anılır, hörmətlə yad edilir



### Göygöl

Respublikamızın hər yerində olduğu kimi, Göygöl rayonunda da şəhidlərin əziz xatirəsi ehtiramla yad edilib. Göygöl rayon icra hakimiyyətinin başçısı Elvin Paşayev, YAP Göygöl rayon təşkilatının sədri Vüqar İsayev, Hüquq mühafizə orqanlarının rəhbərləri, İcra Hakimiyyətinin əməkdaşları, gənclər, qazilər və şəhidin ailə üzvləri Vətən müharibəsində xüsusi qəhrəmanlıqla döyüşərək şəhidlik zirvəsinə ucalmış Samir Məmmədovun Göygöl şəhər Şəhidlər Xiyabanındakı məzarını ziyarət etmişlər. Ziyarət zamanı şəhidin məzarı üzərinə gül dəstələri düzülüb, müqəddəs ruhuna dualar oxunmuşdur. Sonra şəhidin ailə üzvləri ilə görüşüb, onların qayğıları ilə maraqlanılıb. Rayon icra hakimiyyətinin başçısı Elvin Paşayev şəhid ailələrinə göstərilən yüksək dövlət qayğısından danışaraq şəhidlərimizin daim hörmətlə və ehtiramla yad edildiyini, onların gələcək nəsillərə örnək olduğunu söyləmişdir. Söhbət zamanı şəhidin ailə üzvləri onlara göstərilən xüsusi diqqət və qayğıya görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını bildiriblər.

### Şirvan

Şirvan şəhərində də Vətən müharibəsi şəhidi Nicat Hüseynovun xatirəsi anılıb. Şirvan şəhər Şəhidlər xiyabanında şəhidin məzarı ziyarət olunub, önünə gül-çiçək dəstələri düzülüb, xatirəsi ehtiramla yad edilib.

Anım mərasimində çıxış edən Şirvan Şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov şəhidin ailəsinə başsağlığı verərək belə vətənpərvər, mərd, şücaətli oğul böyütdüyü üçün anasına minnətdarlığını bildirib. Vətən müharibəsinin müxtəlif məqamlarından söz açılıb, rəşadətli Azərbaycan Ordusunun hünərlərindən bəhs olunub. Vətənimizin ərazi bütövlüyü, müstəqilliyi uğrunda qəhrəmanlıq göstərərək canlarını fəda edən igid oğullarımızın xatirəsinin hər zaman əziz tutulacağı və unudulmayacağı bildirilib. Torpaqlarımızın işğaldan azad edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək şəxsi igidlik və şücaət nümayiş etdirmiş Azərbaycan Silahlı Qüvvələrinin minlərlə hərbi qulluqçusunun dövlətimizin başçısı tərəfindən orden və medallarla təltif edildiyi vurğulanıb. Şəhid ailələrinə dövlət səviyyəsində göstərilən diqqət və qayğının Şirvan şəhərində də davam etdirildiyi diqqətə çatdırılıb.

Dövlət Təhlükəsizlik Xidmətinin Şirvan şəhər şöbəsinin rəisi Mehman Qasımov, YAP Şirvan şəhər təşkilatının sədri Zahir Qəhrəmanov çıxış edərək, Azərbaycan xalqının hər zaman mübariz oğul və qızlarının şücaətini yüksək qiymətləndirdiyini, bütün şəhidlərimizin ruhuna ehtiram göstərdiyini, xatirəsini uca tutduğunu bildiriblər. Nicat Hüseynovun qısa, lakin şərəfli ömrünün gələcək nəsillərin vətənpərvər tərbiyyəsində xüsusi əhəmiyyətini qeyd ediblər.

Sonda Vətənimizin müstəqilliyi, müdafiəsi, ərazi bütövlüyü uğrunda canından keçən bütün şəhidlərimizin ruhuna dualar oxunub. Şəhidin ailə üzvləri onlara göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını ifadə ediblər.

Bakı Dövlət Universitetinin Tarix fakültəsinin tələbələri tərəfindən 44 günlük Vətən müharibəsi şəhidi, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin kiçik giziri Mikayılzadə Rəşad İlham oğlunun ailəsi ziyarət olunub.Qeyd edək ki, Cənab Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən, şəhid Mikayılzadə Rəşad İlham oğlu ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilib.








### Xəzər

Xəzər rayonu Binə qəsəbəsində Vətən müharibəsi şəhidi Yusifzadə Ramil Adəm oğlunun xatirəsinə inşa olunan bulağın açılış mərasimi keçirilib. Açılış mərasimində Yeni Azərbaycan Partiyası (YAP) Xəzər rayon təşkilatının sədri Namiq Əhmədov, Xəzər Rayon İcra Hakimiyyətinin başçısı Elşən Salahov, ictimaiyyət nümayəndələri, din xadimləri, qazilər, şəhid ailələri iştirak ediblər.

44 günlük Vətən müharibəsində Ordumuzun qazandığı tarixi qələbədən söz açılıb, şəhidlərimizin xalqımızın qəlbində əbədi yaşayacağı bildirilib. Şəhidin ailə üzvləri göstərilən diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya öz minnətdarlıqlarını ifadə ediblər.

Allah bütün şəhidlərimizə rəhmət eləsin!





# Ermənistan: Qərbə bağlanmış ümidlər

**Müasir beynəlxalq münasibətlərdə, demək olar ki istənilən münaqişənin müharibə fazasına keçməsinin qarşısını alacaq diplomatik səylərin mövcudluğu, həmin münaqişənin sülh yolu ilə həllinə töhfə verərək, güc tətbiqi təhdidini minimuma endirir. Yetər ki, masa ətrafında alınmış qərarlar, masa dağıldıqdan sonra öz tətbiqinə nail olsun və tezliklə icra edilsin. Sülh yaradacaq olan bütün fəaliyyətlər isə təkcə regional yox, eyni zamanda beynəlxalq mərkəzlər tərəfindən də dəqiqliklə izlənilməli, sülh pozucuların təxribat meylləri adekvat cəzalandırılmalıdır.**



Suveren hüquqlarla beynəlxalq birliyin müstəqil üzvü olan hər bir dövlətin sözsüz ki, həmin birlik qarşısında yerinə yetirməli olduğu mühüm öhdəlikləri vardır və güc tətbiqi heç bir halda bu öhdəliklərdən yayınmaq üçün bəhanələr təqdim edə bilməz. Heç bir dövlət, başqa bir dövlətin beynəlxalq hüquqla tanınmış ərazi bütövlüyünə və siyasi suverenliyinə hücum edə bilməz, bu aqressiya istənilən halda işğal faktıdır və təcavüzkar dərhal cəzalandırılmalıdır.

Bütün bu sadalananlar təbii ki utopik düşüncə deyil; sülh və təhlükəsizliyə cavabdehlik daşıyan aktorların ən önəmli vəzifəsidir. Buna baxmayaraq, hüququn bir çox hallarda iki üzlülüyü, bəzi aqressorların cəzalandırılmadan qalmasına, bu cəzasızlığın isə növbəti işğal üçün iştah yaratmasına gətirib çıxarır.

Beynəlxalq öhdəliklər və hüququn aliliyinə baxmayaraq, Ermənistanın otuz ilə yaxın müddət ərzindəki işğalçı mövqeyinin sadəcə arasıra ziyarətlər və masada qalmış həll paketləri ilə sovuşdurulması, "yeni müharibə-yeni ərazilər" xülyasına qapılaraq, özgə torpaqlara yenidən tamah salmasına gətirib çıxarmışdı. Nəticədə, bütün dünyanın gözü qarşısındakı işğala, Xocalı kimi bir soyqırıma göz yuman, səsini çıxarmayan bir birliyin, otuz ildən sonra dili söz tutsa nə deyə bilərdi ki? Qətnamələrdəki hüquqi prinsipləri nəzərə alaraq, Azərbaycanın özünün təhlükəsizliyini özü təmin etməsi və həyata keçirmiş olduğu düşməni sülhə məcbur etmə əməliyyatı isə görünür bir çox "sülhə cavabdeh" dövlətin "sülh" anlayışına tərs düşüb. Axı qərb yüz illərdir "sülh üçün davamlı müharibə" tezisindən örnək alırdı.

İbn Haldun "Coğrafiya taledir" deyərkən, həmin coğrafiyanı özünə hazır torpaq tapandan yox, qan tökərək özünə vətən yaradanın talehindən bəhs edir. Yüz illərdir əcdadlarımızın üzərində qan tökdüyü bu torpaqlarda bugün onların nəvə-nəticələri vətən sevdasından şəhid olarkən, hansısa aktorun kənardan gəlib, nəticə yaratmağa, torpaqsızlara torpaq, evsizlərə hazır ev verməyə çalışması təbiikii Azərbaycan kimi dövlət ənənəsinə və suveren dövlətçiliyə sahib bir güc mərkəzi üçün qəbuledilməz faktordur.

"Yaxşı müharibə və pis sülh yoxdur" deyən Benjamin Franklinin düşüncə tərzinin tam əksini özünün milli idealı hesab edən Ermənistan rəhbərliyi, müharibənin hər növünü bir xilas olaraq dəyərləndirərək, ardıcıl aldığı zərbələrdən usanmadan itirərək, sülhdən kənar bütün alternativləri dəyərləndirməyə çalışır. Ermənistanın itkiləri isə təkcə maddi yox, həm də mənəvidir. Ermənistan təkcə top-tank, canlı qüvvə, strateji nöqtə, mühüm döyüş mövqeləri itirməklə bərabər, həm də ağıllanacağına dair bütün ümidləri tükədir. Çünki, müharibənin ardından qalib ölkənin yerdə diz çökmüş məğlub tərəfə regional inkişaf üçün təklif irəli sürməsi, tarixdə görülməmiş iqtisadi jest mənasındadır. Ermənistan isə bütün aqressiv davranışları ilə özünü bütün regional proseslərdən kənar saxlayaraq, uçurumun kənarına doğru sürükləyir. Maraqlısı isə budur ki, uçurumun kənarına doğru sürətlə qaçan Ermənistan rəhbərliyi, həmin uçurumda əlindən tutub saxlayanın kim olduğunu və nə üçün əl uzatdığını belə dövlətçilik ağlı ilə ölçüb-biçmədən dərhal əl uzadaraq, yardım umur.

Görünür sentyabr ayı ermənilərin milli ənənəvi təxribat ayıdır. Çox yox, hələ iki il bundan əvvəl, 2020-ci ilin sentyabr ayındakı təxribatlarının öz adlarına sadəcə 44 gün ərzində necə bir biabırçı məğlubiyyətlə nəticələndiyini unudublar. Hər təxribat erməni tərəfinə əvvəlki sahib olduqlarının həsrətini çəkdirir. Çünki, ardıcıl itkilərlə məhvə doğru sürüklənərək, hər yöndən itirir.

Erməni təxribatları isə sadəcə döyüş cəbhəsində yox, diplomatik korpusumuza qarşı mülki cəbhədə də davam etməkdədir. Mülki cəbhədə isə ermənilərlə bərabər günahda şərik olanlar da var. Vyana konvensiyasının müddəalarını yerinə yetirməkdən, ölkəsindəki diplomatik korpusun nümayəndələrinin təhlükəsizliyini təmin etməkdən bu qədər aciz qalan bir Avropa dövlətinin, uzaqdan gəlib Qarabağda sülhyaratma missiyasında iştirak etmək istəməsi, bu dövlətin ayağının yorğanından uzun olduğunu göstərir. Təhlükəsizliyə təminat və töhfə vermək istəyən ölkə, ilk öncə ölkəsindəki diplomatik nümayəndəliklərin cavabdehi olduğu təhlükəsizliyinə nəzarət etməlidir.

Yüksək sürətlə özünü məhvə doğru aparan Ermənistan adlı təxribat maşınının sükanında əyləşmiş şəxslərin, özgə yol göstəricilərlə gələcək inşa etməyə çalışmaları həm absurddur, həm də bütövlükdə region üçün təhlükəlidir. Sülh adı altında yerləşmiş olduqları regionlara sülhdən başqa hər şey, müharibələr, qətliamlar gətirən bu xarici təşfiqatçılara arxalanmaq və yeni təxribatlara hazırlaşmaq meyli, kapitulyasiyanın ardından Ermənistanın ödəyə bilməyəcəyi qədər ağır hesab mənasına gəlməkdədir.

Qərbin gözdən qaçırmaqda olduğu məqam bundan ibarətdir ki, səssiz qaldıqları erməni ekstremizminə dönüşən lobbi fəaliyyəti, daha doğrusu terroru ilk növbədə bu dövlətlərin öz sərhədləri daxilində baş verdiyindən, onların özünün milli təhlükəsizliklərinə təhdiddir. Diplomatik korpusa hücum edənlərlə birgə, həmçinin həmin hücumun qarşısını almaqda aciz qalan ölkə də milli təhlükəsizliyinə yaranmış bu ekstremist təhlükə qarşısında məsuliyyət daşımaqdadır: həm hücuma məruz qalan Azərbaycan qarşısında, həm də özünün daxili auditoriyası və beynəlxalq ictimaiyyət qarşısında. Fransanın sabiq prezidenti Nicolas Sarkozy "Etiraflarım" əsərində Fransa və fransız ictimaiyyəti haqqında danışarkən fransız ədalətini belə təsvir edir: "cinayətkarlara qarşı hədsiz bağışlayıcı, günahsızlara qarşı olduqca qatı, qurbanlara çox uzaq...". Həqiqətəndə Fransadakı sonuncu təxribatlar göz önünə alındığı zaman, mövcud situasiyanı bundan daha aydın açıqlamaq olmazdı.

Maraqlıdır ki, regionda sülhə və əməkdaşlığa ən çox ehtiyac duyanla, sülhü hər vəchlə sabotaj etməyə çalışan tərəf eynidir. Sülh və təhlükəsizliyə cavabdehlik daşıyanlarla, sülh və təhlükəsizliyə ən çox təhdid yaradan ölkələrin eyni olması kimi. Həqiqətən beynəlxalq münasibətlərin bugününü təhlil etdiyimiz zaman ortaya cavablandırılması çətin belə bir sual çıxmış olur:

-Axı beynəlxalq güc mərkəzlərinin sülh yaratmaq istədikləri regionlarda, təcavüzkara, aqressora dəstək verən, onları ruhlandıran elə özləri deyilmi?

Ermənistan sülh masasına əyləşməyə çalışdığı hər dəfəsində cəbhədə törədilmiş hər təxribatın ardından bir "sülh dövləti" çıxır. Birmənalı şəkildə dərk etmək lazımdır ki, Ermənistan bugün siyasi, iqtisadi və hərbi baxımdan tükənmiş haldadır. Ruhdan düşmüş və qorxudan mövqelərini tərk edərək qaçmış bir ordunun özünü toparlaması üçün illərlə zaman zəruri ikən, kənardan qulağına pıçıldanmış sözlərlə özünü qlobal və regional aynalarda şir olaraq qələmə verir.

Dünyadakı münaqişə regionlarında müharibələr artıq əldə oyuncaq vasitələrə, dövlətlər, xalqlar isə maşaya çevrilmiş haldadır. Maşanı tutaraq, münaqişələri hər dəfəsində qızışdırmağa çalışanlar isə "sülhpərvər missiya" üzvləridir. Dünya artıq yeni reallıqla barışmalı və dərk etməlidir ki, Azərbaycan günümüzdə beynəlxalq sülh və təhlükəsizliyə töhfə verən, nəqliyyat-kommunikasiya dəhlizləri ilə regionlararası birləşdirici funksiyanı üstlənən, beynəlxalq enerji problemində hazırki şəraitdə əvvəlki dövrlərdən də artıq rol oynayan və hüququn aliliyini təmsil edən güc mərkəzidir. Qarabağ məsələsi isə, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllini tapmış məsələdir və yenidən qızışdırılmağa çalışılması, həmçinin sərhəd təxribatları sadəcə və sadəcə Azərbaycanın ərazi bütövlüyünə qarşı növbəti təxribat səciyyəsi daşımaqdadır. Cənab Prezident tərəfindən də dəfələrlə vurğulandığı kimi, Azərbaycan heç bir dövlətin ərazi bütövlüyünə qəsd etməyib və belə bir iddiası da yoxdur. Amma, Azərbaycan otuz il əvvəlki ölkə deyil ki, kənardan alqış alan sərhəd keçib istədiyi havanı çalsın. Azərbaycanın istənilən təxribatın qarşısını almağa hazır güclü ordusu var və sentyabr ayının 12-sindən 13-nə keçən gecə düşmən də növbəti təxribatı zamanı bunu bir daha dərk etmiş oldu.

Torpaqlarımıza göz dikənin ərazi bütövlüyünü sual altında qoyarıq. Nəticədə tarixi nöqteyi-nəzərdən buna haqqımız çatır. Azərbaycan beynəlxalq hüquqla tanınmış sərhədlərini və ərazi bütövlüyünü, bu torpaqlardakı siyasi suverenliyini milli iradəsi ilə işğaldan azad edərək, BMT qətnamələrinin də icrasını təmin etmişdir. 30 ilə yaxın müddət ərzində disfunksional gediş-gəlişlərlə münaqişəni bulandırmağa çalışan aktorlar isə, ilk növbədə milli təhlükəsizliklərinə təhdid formalaşdıran ekstremist lobbi fəaliyyətinə nəzarət etməli, xüsusilə də diplomatik korpus əməkdaşlarının cavabdeh olduqlarını məsuliyyətini "sülh və təhlükəsizliyə cavabdeh dövlət" fonunda təmin etməlidirlər.

Sülhpərvər missiya üstlənməyi arzulayan aktorların təcavüzkar meyllər göstərən dövlətə siyasi dəstək verməsi, "hərbi hədiyyə"lərlə növbəti təxribatlar üçün şirnikləndirməyə çalışması sülhün gündəm olduğu region üçün destruktiv cəhddən başqa bir şey deyildir. Nəticədə Nikol Paşinyan bir zamanlar rus texnikaları ilə də paylaşdığı selfilərlə gücünü göstərəcəyini zənn edirdi. Amma zəruri siyasi və hərbi bilik və təcrübədən məhrum olan bu siyasi yeniyetmənin nəzərdən qaçırdığı məqam budur ki, bir orduya xaricdən hər cür silah-texnika almaq mümkündür, amma, vətən qeyrəti, inam və ölümü gözə alacaq qədər bağlılıq alınıb-satılma məfhumlar deyil, içdən və qandan qaynaqlıdır. Bu baxımdan onlar üçün məğlubiyyət hər zaman qaçınılmazdır və mütləqdir.

***Bahadur Hüseynov***
***Beynəlxalq Münasibətlər üzrə magistr***

## "Fransa həmişə ermənipərəst olub"



"Fransa prezidenti Emmanuel Makronun "France2" kanalına verdiyi müsahibə bir daha onu sübut edir ki, Fransa nə olursa-olsun yenə də ermənilərin yanındadır. Onlar haqq-ədaləti bir kənara qoyublar". Bu sözləri SİA-ya açıqlamasında hərbi-siyasi ekspert Telman Qasımov deyib.

Onun sözlərinə görə, Makron çıxışında Azərbaycanın haqq səsini dinləməyib ermənini dəstəklədi ki, bunun da səbəbi var: "Bu, onunla bağlıdır ki, artıq 100 illərdir ki, Fransa ermənilərin yanındadır. Bu, Makronun çıxışında da aydın oldu. Artıq bəlli məsələdir ki, Fransanın erməni diasporu Makronu ələ alıb. Bu, sirr deyil və dəfələrlə də açıqlamışıq.

Onların dediklərinə görə, 44 günlük Vətən müharibəsində guya ermənilərin hüquqları pozulub. Fransa prezidentinin mövqeyi artıq bəllidir. O, erməni xislətindən əl çəkmir".

Telman Qasımov sözlərinə belə davam edib: "Burada Fransanın dövlət maraqları var. Fransa istəyir ki, regionda Amerikanın yanında, logistik yol xətlərinin açılması məsələsində iştirakçı olsun. Çünki bu yollar açılarsa, Şərqlə Qərbin birləşməsi baş tutacaq. Emmanuel Makron məsələlərə şəxsi maraq və münasibətləri üçün yanaşır. Bu da çox yanlışdır. Zaman öz axarı ilə gedir və regionda vəziyyət gərgindir. Böyük güclərin maraqları toqquşur. Amma Azərbaycanın sərhəd bütövlüyü var. Apardığımız incə siyasət nəticəsində bütün dünyaya sübut edə bilirik ki, Azərbaycan haqlı tərəfdir.

Makronun "France2" kanalına verdiyi müsahibəsində çox qərəzli çıxışlar görürəm. Makron Fransa ermənilərindən qidalandığı üçün onların maraqlarını dəstəkləyir. Onun apardığı ikiüzlülük siyasəti nəticəsində Azərbaycanda olan beynəlxalq layihələrdən də geri qalacaq".

***Ayşən Vəli***

# ZƏFƏR ZİRVƏSİNDƏN SON 19 İLƏ BAXIŞ

*2003-2022-ci il tariximizin inkişafla başlayıb zəfərlə davam edən ən qüdrətli mərhələsidir*

Azərbaycanın müasir tarixində xalqın ədalətli seçimini, gələcək taleyini müəyyən edən əlamətdar günlərdən biri də 2003-cü ilin 15 oktyabr günüdür. 2003-cü ilin 15 oktyabr tarixində keçirilmiş seçkilərdə seçicilərin 76 faizdən çoxu İlham Əliyevə səs vermişdir. İlham Əliyevi Prezident seçməklə Heydər Əliyevin siyasi kursuna sadiqliyini nümayiş etdirən xalqımız Ümummilli Liderə sevgisini və inamını bir daha sübut etdi.Bəli, məhz bu gün ulu öndər Heydər Əliyev tərəfindən qorunub-saxlanılan müstəqilliyimiz düz 19 il öncə - 2003-cü ilin oktyabrın 15-i Azərbaycan Prezidenti İlham Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçilməsi ilə daha da möhkəmləndirilir, onun əbədiliyi təmin edilir.



**MUXTAR NAĞIYEV,**
**YAP Səbail rayon təşkilatının sədri**

### 2003-cü il oktyabrın 15-də İlham Əliyev xalqımızın etimadını qazanaraq Azərbaycan Prezidenti seçilməklə ölkəmizin inkişafında yeni bir mərhələnin təməlini qoydu

Bəli, xalqımız 2003-cü ilin 15 oktyabr tarixində keçirilmiş seçkilərdə seçicilərin 76 faizdən çoxu İlham Əliyevə səs verməklə Ulu Öndər Heydər Əliyev siyasətinin davam etdirilməsinə və ölkədə sabitliyin qorunmasına öz səslərini vermiş oldu. Beləliklə, Azərbaycan xalqı İlham Əliyevi Prezident seçməklə öncə Heydər Əliyevin siyasi kursuna səs verdi. Bu siyasi kursa sadiqliyini nümayiş etdirən xalqımız Ümummilli Liderə sevgisini və inamını bir daha sübut etdi. Azərbaycan xalqı sülhün, əmin-amanlığın, tərəqqinin, inkişafın, quruculuğun və sabitliyin tərəfində olduğunu nümayiş etdirdi, ölkədə bu siyasətə alternativin olmadığını göstərdi.2003-cü il oktyabrın 1-də Ulu Öndər Heydər Əliyev Azərbaycan xalqına müraciət edərək öz namizədliyini siyasi varisi İlham Əliyevin xeyrinə geri götürdüyünü bildirdi: "Üzümü Sizə - həmvətənlərimə tutaraq, qarşıdan gələn Prezident seçkilərində Prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin I müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm";

Bəli, ulu öndərin başa çatdıra bilmədiyi taleyüklü məsələlər bu gün reallaşmaqdadır. 2003-cü ildən bu günə qədər Azərbaycan sürətli inkişaf dövrü yaşayır və Ümummilli Lider Heydər Əliyev siyasəti davam etdirilir. Və bu 19 il ərzində, Ulu Öndər Heydər Əliyevin demokratik-hüquqi və dünyəvi dövlət quruculuğuna yönəldilmiş müstəqillik siyasətini qətiyyətlə həyata keçirən Prezident İlham Əliyev ölkə iqtisadiyyatında qeyri-neft sektorunun çəkisinin artırılması ilə bağlı davamlı tədbirlər gördü. Nəhəng infrastruktur layihələri həyata keçirildi. Azərbaycanda nəqliyyat sisteminin yenidən qurulması ölkəmizin dünyaya çıxışını təmin etdi. 5 ildə gördüyü işlər Onun 2008-ci il 15 oktyabr prezident seçkilərində 88,73 faiz səs qazanmasına imkan yaratdı. 2013 və 2018-ci il prezident seçkilərində də qələbəsini təkrarlaması hər bir vədini konkret əməli işdə təsdiqləməsi ilə şərtləndirdi. Xalq-iqtidar birliyi uzunmüddətli inkişaf strategiyasının müəyyənləşdirilməsinə geniş imkanlar açır. Bəli, bu gün Azərbaycan dünyada güclü, qüdrətli ölkə olaraq hər bir sahədə sözünü deyir. Məhz Azərbaycan Prezidentinin yürütdüyü uğurlu xarici siyasət nəticəsində ölkəmiz BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçildi, dünyada beynəlxalq təşkilatlar Ermənistanı işğalçı dövlət kimi tanıdı. Azərbaycan Prezidentinin bu məsələdəki birmənalı mövqeyi təsdiqlədi ki, Qarabağın Azərbaycandan ayrılma mexanizmi yoxdur. Azərbaycanın 155 dövlətin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi, həmçinin 120 dövlətin təmsil olunduğu Qoşulmama Hərəkatına 2019-2022-ci illərdə sədrlik etməsi müasir Azərbaycanın beynəlxalq miqyasda nüfuzunu və qüdrətini göstərir.Güclü dövlət iqtisadiyyatı ilə fərqlənir. Ən əsası isə Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayan Azərbaycan Cənub Qaz Dəhlizi layihəsinin aparıcı qüvvəsi kimi çıxış etməkdədir. Belə ki, Xəzərin Azərbaycan sektorunda "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında yeni sazişin imzalanması ölkəmizin dünya enerji sənayesində həlledici rolu olduğunu bir daha təsdiqlədi. Böyük tarixi hadisə olan Asiyanı Avropa ilə birləşdirəcək Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin, Azərbaycan neftini bibaşa dünya bazarına çıxaran Bakı-Tbilisi-Ceyhan neft kəmərinin çəkilməsi kimi nəhəng layihələrin icrasına nail olundu.

### Son 19 il - qalibin məğlub üzərində qələbəsinin qalib lideri İlham Əliyev

Hər bir Azərbaycan vətəndaşının Prezidenti olan və əməli addımları ilə təsdiqləyən cənab İlham Əliyevin uzaqgörən siyasətinin əsas məqsədlərindən biri, ən ümdəsi ərazi bütövlüyümüzün bərpası idi. Buna görə hər bir atılan addım Azərbaycanı Qarabağımızın azadlığına yaxınlaşdırırdı. Son 19 il Prezidentlik fəaliyyəti ərzində Ali Baş Komandanımız "bir qarış torpağımızı belə heç kəsə verən deyilik" xəbərdarlığının bu gün Azərbaycan xalqı, bütün dünya bir daha gördü ki, Qarabağ Azərbaycandır!

""Qarabağ Azərbaycandır və nida" ifadəsi artıq bizim qələbəmizin rəmzinə çevrilib. Bir il bundan əvvəl mən bunu demişəm. Mən fəxr edirəm ki, mənim dediyim ifadə artıq bir milli şüara çevrildi"-deyən Müzəffər Ali Baş Komandan bu gün apardığı uğurlu, diplomatik siyasəti ilə sübut etdi: "Bu gün böyük qürur hissi ilə deyə bilərik ki, Füzuli bizimdir, Cəbrayıl bizimdir! Zəngilan bizimdir! Qubadlı bizimdir! Ağdam bizimdir! Laçın bizimdir! Kəlbəcər bizimdir! Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır! Eşq olsun Azərbaycan xalqına! Yaşasın Azərbaycan!".Böyük qələbəni al qanı ilə yazan şəhidlərimizin intiqamının alınması ilə əldə edilən zəfəri, qalibiyyəti Azərbaycan xalqına bəxş etməklə Ali Baş Komandanımız İlham Əliyev həm də həyatını Azərbaycana həsr edən, "Şuşasız Qarabağ, Qarabağsız Azərbaycan yoxdur" - deyən Ulu Öndərin arzusunu reallaşdırdı: "Mən bu gün Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Bu gün şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır! Gözün aydın olsun Azərbaycan! Gözünüz aydın olsun dünya azərbaycanlıları!".Bəli, bu gün Azərbaycan Qarabağa qovuşdu, tarixi zəfərə imza atdı, şəhidlərimizin, Xocalı qurbanlarının, Gəncə, Bərdə digər şəhər və rayonlarımızda soyqırımları zamanı həlak olan günahsız insanların qisasını döyüş meydanında aldı, işğalçı Ermənistana layiq olduğu yeri göstərdi. 44 günlük Zəfər Qələbəsi "Qarabağ Azərbaycandır və nida işarəsi"-söyləyən Prezidentimiz son 19 ildə - hər zaman olduğu kimi bu dəfə də vədinə əməl etdiyinin sübutudur. Ən əsası isə, noyabrın 10-u xalqımızın tarixinə şanlı, qızıl hərflərlə yazılan tarixidir. Beləliklə, güclü xalq, dövlət başçımız İlham Əliyev cənabları hər dəfə Prezident seçilməklə güclü dövlət, güclü lider vəhdəti müstəqil və müasir Azərbaycanın qüdrətinə çevrildi. Beləliklə də, 2003-2022 ci il tariximizin inkişafla başlayıb zəfərlə davam edən ən qüdrətli mərhələsi olmaqla Azərbaycan bundan sonra da möhtərəm Prezidentimiz İlham Əliyev cənablarının uzaqgörən siyasəti və müdrik rəhbərliyi sayəsində inkişaf edəcək və çiçəklənəcək.

## Avropanın altı illik büdcəsi Ukraynaya yardıma görə...tükənir...



Avropa Komissiyasının rəhbəri Ursula fon der Leyen Avropa İttifaqının növbəti yeddi il üçün büdcəsinin artıq başa çatmaq üzrə olduğunu bildirib. Onun sözlərinə görə, bu, Ukraynada davam edən hərbi yardımla bağlıdır. SİA-nın rus saytlarından əldə etdiyi məlumata görə, bu barədə "Financial Times" yazıb.

"...2021-2027-ci illər üçün nəzərdə tutulan büdcə eyni vaxtda bu qədər işi həll etmək üçün hazırlanmamışdı"-deyən Ursula von der Leyen, Avropa İttifaqının artıq büdcəni tənzimləmək üçün plan hazırladığını da etiraf edib. Bundan əvvəl NATO-nun baş katibi Yens Stoltenberq, Ukraynadakı vəziyyətin NATO-ya üzv ölkələrin müdafiə nazirlərinin ikigünlük görüşünün əsas mövzusu olacağını bildirmişdi. Təbii ki, görüşdə alyansın Kiyevə hərbi yardımın artırılması da müzakirə ediləcək.

***Ağasəf Babayev***

## İnsan alverinin qarşısının alınmasında gənclərin hansı rolu ola bilər?

Dünən Hüquqi və Demokratik İslahatlar Mərkəzi İctimai Birliyinin Azərbaycan Respublikasının Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Agentliyinin maliyyə dəstəyi ilə keçirdiyi "İnsan alverinə qarşı mübarizədə vətəndaş həmrəyliyinin artırılması" layihəsi çərçivəsində növbəti tədbir Bakı şəhərində Slavyan Universitetində keçirilib. SİA xəbər verir ki, universitetdə təşkil olunan tədbirdə müəllim və tələbələrlə yanaşı jurnalistlər, sosioloqlar və ictimai fəallar da iştirak edib. Layihə çərçivəsində təşkil olunan "İnsan alverinə qarşı mübarizədə gənclərin maarifləndirilməsi" adlı tədbiri layihə rəhbəri İlham Əliyev açaraq, bu mövzunun aktual olduğunu və bu sahədə maarifləndirmənin vacibliyini bildirdi.

"Xüsusən də, gənclərin, tələbələrin bu sahədə maarifləndirilməsi və məlumatlandırılması belə halların qarşısının alınmasında əsas vasitələrdən biridir. Bu səbəbdən də təşkilatımız əlindən gələni etməyə çalışır ki, bu problemin həllinə öz töhfəmizi verə bilək"- deyə o qeyd etdi. HDİM sədri bu sahədə beynəlxalq və yerli statistikanı açıqlayaraq problemə diqqətin artırılmasına ehtiyac olduğunu dedi və belə cinayətkar şəbəkələrin toruna düşməmək üçün öz tövsiyələrini verdi.



Tədbirdə çıxış edən layihənin eksperti, sosioloq Elçin Bayramlı bildirib ki, dövlət insan hüquq və azadlıqları sahəsində ardıcıl tədbirlər görüb, qanunlar qəbul edib, islahatlar aparsa da bu sahədə ağrılı problemlər hələ də qalmaqdadır: "İnsan hüquq və azadlıqları üçün ən böyük problemlərdən olan yoxsulluq, müharibələr, iqtisadi böhranlar insan alveri münbit şəraitin yaranmasına səbəb olub və cinayətkar qruplar üçün geniş imkanlar yaradır. Azərbaycanda insan alveri hallarına görə vəziyyət qənaətbəxş olsa da, bu sahədə mövcud problemlərin həlli mümkün olmayıb. Mənəvi-əxlaqi deqradasiyadan və sosial problemlərdən əziyyət çəkən qruplar bu şəbəkələr üçün potensial qurbandır. Digər tərəfdən də, bəzi yad ünsürlər tərəfindən Azərbaycan ailə dəyərlərinə, milli adət-ənənələrinə zidd olan təbliğatların aparılması belə qurbanların sayını artırır".

Tədbirdə universitetin fəal tələbələrindən olan Fatimə Rəsulova, Kənan Bağırlı, Nigar Səfərli, Sənan Şükürov, Nilgün Şümalova və başqaları ekspertlərə suallarını ünvanlayıb, mövzu ilə bağlı fikirlərini bildiriblər. Mövzu ətrafında geniş müzakirələr aparılıb, problemin səbəbləri, nəticələri, qarşısını almaq yolları ətraflı təhlil olunub. Ümumi fikir belə olub ki, Azərbaycanda milli mənəvi dəyərlərə söykənən inkişaf yolu qorunmalı, bu kimi problemlərin qarşısının alınmasında və həllində cəmiyyət və dövlət birgə səylər göstərməlidir. Tədbirdə layihə mövzusunda hazırlanmış bukletlər paylanılıb.

***Elçin***

# Dünyada aclığın qarşısını almaq üçün hansı tədbirlər görülür?



***Onilliklər boyu davam edən davamlı azalmadan sonra, aclıqdan əziyyət çəkən insanların sayı 2015-ci ildə yavaş-yavaş yenidən artmağa başlamışdır. Hazırkı hesablamalara görə, dünyada demək olar ki, 700 milyondan çox insan və ya dünya əhalisinin 8,9 faizi acdır. Bir il ərzində 10 milyon insan, son beş ildə isə demək olar ki, 60 milyon artıb.***

Dünyada tendensiyalar davam edərsə, 2030-cu ilə qədər aclıqdan əziyyət çəkən insanların sayının 840 milyonu keçəcəyinə dair proqnozlar verilir. Ümumdünya Ərzaq Proqramının məlumatına görə, 135 milyon insan əsasən texnogen münaqişələr, iqlim dəyişiklikləri və iqtisadi tənəzzül səbəbindən aclıqdan əziyyət çəkir. COVID-19 pandemiyası indi bu rəqəmi iki dəfə artırıb.

Potensial olaraq aclıq astanasında olan dörddə bir milyarddan çox insanla qida və humanitar yardımın ən çox risk altında olan ərazilərə çatmasını təmin etmək üçün sürətli tədbirlər görülməyə cəhdlər edilir.

Eyni zamanda, qlobal ərzaq və kənd təsərrüfatı sistemi əsaslı şəkildə dəyişdirilir ki, bu gün ac olan 690 milyondan çox insanı, 2050-ci ilə qədər isə 2 milyard daha çox insanı qidalandıra bilsinlər. Kənd təsərrüfatı məhsuldarlığının artırılması və davamlı ərzaq istehsalı aclıq riskini azaltmaq üçün çox vacibdir. Ümumdünya Ərzaq Proqramının Ərzaq Yardımı Proqramı bütün dünyada 87 milyon həssas insan üçün həyati əhəmiyyət kəsb edir.



Pandemiyanın qida və kənd təsərrüfatı sektorlarına təsirini nəzərə alaraq, hamıya, xüsusən də yoxsullara və ən çox əhaliyə əhəmiyyətli təsir göstərən böyük şokların riskini azaltmaq üçün qida tədarükü zəncirlərinin davamlılığını təmin etmək üçün sürətli tədbirlər görülür.

Bunlara: həssas əhali qruplarının təcili ərzaq ehtiyaclarını ödəmək;

sosial müdafiə proqramlarını gücləndirmək;

qlobal ərzaq ticarətini davam etdirmək;

ölkə daxilində tədarük zəncirlərini saxlamaq və s. daxildir.

BMT-nin Qlobal Humanitar Cavab Planı dünyanın ən yoxsul ölkələrində virusla mübarizə və ərzaq təhlükəsizliyi ilə üzləşəndə ən həssas təbəqələrin ehtiyaclarını ödəmək üçün addımları düşünür.

Kənd təsərrüfatı bu gün dünya əhalisinin 40 faizini dolanışıq vasitələri ilə təmin edən dünyanın ən böyük işəgötürən sahəsidir. Bu, yoxsul kənd ev təsərrüfatları üçün ən böyük gəlir və iş mənbəyidir.

Beş yüz milyon kiçik fermer, inkişaf etməkdə olan ölkələrin əksəriyyətində istehlak edilən qidanın 80 faizini təmin edir. Kiçik təsərrüfatlara sərmayə qoymaq ən yoxsul insanların ərzaq təhlükəsizliyini yaxşılaşdırmaq, həmçinin yerli və qlobal bazarlar üçün ərzaq istehsalını artırmaq üçün mühüm üsuldur.

Ötən əsrin əvvəllərindən bəri ərzaqların təxminən 75 faizi fermerlərin tarlalarından gəlib. Kənd təsərrüfatının biomüxtəlifliyindən daha yaxşı istifadə pəhrizlərin qida dəyərini yaxşılaşdırmağa, kənd icmalarının güzəranını artırmağa və kənd təsərrüfatı sistemlərinin dayanıqlığını və dayanıqlığını artırmağa kömək edir.

Dünyada elektrik enerjisindən məhrum olan 1,4 milyard insan var ki, onların əksəriyyəti inkişaf etməkdə olan ölkələrin kənd yerlərində yaşayır. Dünyanın bir çox regionlarında enerji yoxsulluğu aclığın azaldılmasına və gələcək tələbatı ödəmək üçün kifayət qədər ərzaq istehsalına əsas maneədir.

BMT-nin baş katibi Antonio Quterreş demişdi ki, Rusiya, Belarus və Ukraynadan gələn gübrələr və məhsullar olmadan dünya ərzaq böhranının qarşısını almaq olmaz.

Koronavirusla mübarizə ilə bağlı məhdudiyyətlərə görə Çin limanları rus balığının qəbulunu dayandırdı və digər istehlakçılara göndərmək məcburiyyətində qaldıqda çətinliklər yarandı. Avropada əksər kiçik fermerlər əvvəllər istehsal etdikləri ərzaq məhsullarının istehsalını dayandırıblar.





Pandemiya ilə əlaqədar nəinki ərzaq bazarında təklif azalıb, hətta ərzaq məhsullarının qiymətləri də xeyli artıb. 1945-ci ildə aclıqla mübarizə aparmaq üçün yaradılan Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının rəqəmləri 2020-ci ildən ərzaq qiymətlərinin daha da artdığını bildirir. Çünki Qərb ölkələri əhalini koronavirus infeksiyası ilə mübarizədə dəstəkləmək üçün qlobal iqtisadiyyata pul vurdu və inflyasiya spiralı başladılar.

ABŞ və Avropa İttifaqı dünya ərzaq bazarına heç bir manеə yaratmayacaqlarını bəyan edərək, Rusiyaya qarşı sanksiyalar tətbiq etdilər və bununla da dünya iqtisadiyyatında adi axarını düşünmədən pozdular. Bir çox ölkələr ərzaq bazarı üçün riskləri kompensasiya etmək və ən yoxsul ölkələr üçün həqiqətən mövcud olan aclıq təhlükəsinin qarşısını almaq üçün beynəlxalq hüquqi sənədlərin hazırlanmasında fəal iştirak edirlər. Dünyada 300 milyona yaxın insan aclıq səbəbindən risk altındadır.

Dünya taxıl bazarı təqribən 800 milyon tondur və bu həcmdə Ukrayna taxılının 20 milyon ton olması əhəmiyyətsiz göstəricidir.

Ərzaq təminatında ciddi şəkildə idxaldan asılı olan Azərbaycan üçün qlobal ərzaq bazarındakı problemlərin təsirsiz qalması mümkün deyil. Bu təsirin daha çox qıtlıq deyil, qiymət bahalaşması formasında hiss olunacağı gözlənilәndir. Belə ki, Azərbaycanın buğda aldığı hər iki ölkədə - Rusiya və Qazaxıstanda bu il buğda istehsalında artım proqnozlaşdırılır. Bu o deməkdir ki, əsas ərzaq məhsulu olan buğda təchizatında qıtlıq yaranmayacaq.

Ekspertlərin fikirlərinə görə, Azərbaycan qlobal bazar qiymətlərinin bahalaşması fonunda buğda bazarında kəskin qiymət rəqabəti ilə üzləşəcək. Aydın məsələdir ki, Qazaxıstan və Rusiya istehsalçıları məhsullarını mümkün qədər yüksək qiymətə satmağa çalışacaqlar. Bu isə Azərbaycanın idxal etdiyi buğdanın indikindən 15-20 faizədək baha başa gəlməsini şərtləndirəcək. Məlumdur ki, yanvar ayında buğda, un və çörəyin qiymətindəki bahalaşmadan sonra dövlət buğda və un idxalçıları, həmçinin un istehsalçılarına dəstək mexanizmi işə salmaqla təkrar qiymət bahalaşmasının qarşısını alır. Lakin qlobal bazar qiymətlərinin sürətlə bahalaşması fonunda dövlət dəstəyinin qiymətləri sabit saxlamaq üçün yetərli olmayacağı məlumdur.

Azərbaycanda yerli istehsal ərzaqlıq buğda tələbatının çox cüzi bir hissəsini qarşılamaq imkanındadır. Ölkədə istehsal olunan təxminən 1,8 milyon ton buğdanın keyfiyyət baxımından cüzi bir hissəsi ərzaqlıq istifadə üçün yararlı olur. Buna görə də tələbatı qarşılamaq üçün ildə 1,2-1,3 milyon ton ərzaqlıq buğda idxal edilir. Bu il ölkə üzrə buğda əkinlərinin sahəsində azalma müşahidə olunmaqdadır. Belə ki, ötən il ölkədə 608,5 min hektar sahədə payızlıq buğda əkilmişdisə, bu il məhsulu üçün əkin sahələri 6,4 min hektar azalmaqla 602,1 min hektara düşüb. Lakin yazlıq buğda əkinləri keçən ilkindən 2,2 dəfə çox olmaqla 4,2 min hektar təşkil etmişdir. Buna baxmayaraq, ölkənin bu il özünü təmin edəcək qədər keyfiyyətli buğda istehsalını təmin etməsi real deyil. Bu istiqamətdə İsraillə sıx əməkdaşlığa başlanıb. İsrail mətbuatının yazdığına inansaq, iki ölkənin birlikdə həyata keçirməyə hazırlaşdığı böyük layihə 2025-ci ildən etibarən Azərbaycanın buğda ixracatçısına çevrilməsinə hesablanıb.

***Havar Şəfiyeva***

TƏRS BAXIŞ+ÖZƏL

# Cənab Makron, siyasət heç də makaron deyil...

## Parisin rəsmi Bakıya qarşı təzyiq cəhdləri alınmayacaq!

İstər 44 günlük İkinci Qarabağ müharibəsinə qədər, istərsə də müharibədən sonra Azərbaycanın dövlətinin və xalqının qalib çıxdığı haqq və ədalət mübarizəsinə qarşı xarici təsirlər kifayət qədər oldu və bu gün də qalmaqdadır. Müxtəlif vaxtlarda bəzi region ölkələri də daxil olmaqla regiondan kənar siyasi mərkəzlər bu və ya digər şəkildə ikili standartlardan çıxış etməklə daha çox Ermənistanın mövqeyinə gah gizli, gah da açıq dəstəklərini nümayiş etdiriblər. Halbuki, rəsmi Bakının danışıqlar apardığı müddətdə vasitəçilik edən əsas cinahlar artıq ortaq məxrəcə gəlməyin və sülh müqaviləsinin imzalanması istiqamətindəki növbəti addımların necə atılacağını müəyyən ediblər. Məhz bu müstəvidə Aİ-nin səylərini xüsusi vurğulamaq olar. Belə ki, Avropa İttifaqı Şurasının rəhbəri Şarl Mişelin Ermənistanın müxtəlif yolverilməz bəhanələrinin aradan qaldırılması yönündəki uğurlu vasitəçiliyi, eləcə də Azərbaycan Prezidenti İlham Əliyevin qətiyyətli iradəsi sayəsində sülh müqaviləsinin yekun mətninin hazırlanması imzalanması və imzalanması, həmçinin 10 noyabr 2020-ci ildə imzalanmış bəyanatdakı bəndlərin rəsmi İrəvan tərəfindən realizə edilməsi prosesi artıq işlək vəziyyətə gətirilib.




### Fransa Ermənistana böyük bacılıq prizmasından yanaşmağa davam etmək məqsədini bir daha və açıq şəkildə ortaya qoyub

Belə bir məqamda yuxarıda da qeyd edildiyi kimi, bəlli və qərəzli siyasi dairələrin "tərəf" olaraq özlərini sözün əsl mənasında yuyulmamış qaşıq kimi ortalığa atmaları, üstəlik, sülh prosesinə mane olaraq onu ləngitmək cəhdləri hiddət doğurmaya bilməz. Bu dairələrdən biri də Fransa və bu ölkənin prezidenti Emmanuel Makrondur. Məlum olduğu kimi, Fransa 30 il artıq fəaliyyətinə heç bir ehtiyac qalmamış ATƏT-in Minsk qrupunun həmsədr ölkəsi olaraq nəinki BMT-nin qəbul etdiyi məlum dörd qətnamənin Ermənistan tərəfindən icra olunması istiqamətində fəaliyyət aparıb, əksinə, rəsmi İrəvanın işğalçılıq siyasətinə aşkar dəstəyini ifadə edib. Görünür, bu gün Fransa kimi ölkəyə rəhbərlik edən Emmanuel Makron hələ də regionda baş vermiş dəyişikliklər faktını ya həzm edə bilmir, ya da bu reallığı qəbul etmək iqtidarında deyil. Qısası, Fransa Ermənistana böyük bacılıq prizmasından yanaşmağa davam etmək məqsədini bir daha və açıq şəkildə ortaya qoyub. Bəs məsələ bu dəfə nədədir?

Məsələ ondadır ki, bugünlərdə France 2 telekanalında çıxış edən fransız prezident bu dəfə sülh müqaviləsinin imzalanmasına doğru gedən prosesdə əsas vasitəçilərdən və region ölkələrindən biri olan Rusiyanı, dolayısı ilə Azərbaycanı hədəfə almaqla guya Moskvanın bilərəkdən (???!!!-R.R.) Bakını İrəvana qarşı təxribata çəkdiyini, gərginliyi artırdığını iddia edib. Onun sözügedən fikirlərindən, sadəcə, bir sitatı diqqətə çatdırırıq: "Son iki ildə sərhəddə baş verənlər... 5000 rus əsgəri guya orada sərhədin təhlükəsizliyini təmin edirlər, ruslar bir neçə yüzillərdir davam edən bu münaqişədən istifadə ediblər və türklərin iştirakı ilə Azərbaycanla oyun oynayaraq Ermənistanı zəiflətmək üçün geri dönüblər, hansı ki, bu ölkə ilə onlar da biz də nə vaxtsa yaxın olmuşuq... Görürsünüz nə baş verir? Bu, Rusiyanın situasiyanı destabilizə etmək cəhdidir. O, Qafqazda özbaşınalıq yaratmağa çalışır ki, sonradan hamımızı destabilizə etsin".

Fransanın Emmanuel Makrona qədər olan prezidentləri - Fransua Mitteran, Jak Şirak, Nikolya Sarkozi hansı səbəblərə görə Azərbaycan dövlətinin və xalqının uğradıqları haqsızlıqlara, ədalətsizliklərə görə ömürlərində bircə dəfə də olsun səslərini çıxarmadılar?

Maraqlı və düşündürücüdür, bəs Fransa 30 il ATƏT-in Minsk qrupunun həmsədr ölkələrindən biri olmaqla Ermənistanın Azərbaycan dövlətinə və xalqına qarşı təcavüzkarçılıq və terrorçuluq siyasətinə qarşı niyə susqun davrandı? Yaxud, Fransanın Emmanuel Makrona qədər olan prezidentləri - Fransua Mitteran, Jak Şirak, Nikolya Sarkozi hansı səbəblərə görə Azərbaycan dövlətinin və xalqının uğradıqları haqsızlıqlara, ədalətsizliklərə görə ömürlərində bircə dəfə də olsun səslərini çıxarmadılar? Əksinə, torpaqlarımız işğala məruz qalarkən, talan edilərkən - istər Birinci Qarabağ müharibəsi dövründə, istərsə də sözdə 28 illik "atəşkəs" dövründə mülki vətəndaşlarımızın, uşaqlarımızın, qadınlarımızın, bütövlükdə isə dinc əhalimizin qətlə yetirilmələrinə, şəhər və kəndlərimizin yerlə-yeksan olunmalarına, sadəcə, kor oldular!!!

Məgər bütün bu kimi danılmaz faktlar Makronun öz dili ilə ifadə etsək - regionun qeyri-sabitliyinə və gərginliyin artmasına səbəb olmurdumu? İndi nə tez yadlarına regionun "təhlükəli vəziyyətə" düşməsi düşdü???

### Makronun "vasitəçi" kimi zorla prosesə daxil olmaq cəhdləri kənardan çox idbar və ürəkbulandırıcı görünür

Təbii ki, bir məsələni bir daha isbatlayır: Fransanın prezidenti Emmanuel Makron bilavasitə (!) erməni tərəfinin mövqeyini ifadə etməsi ilə kimin yanında olduğunu və eyni zamanda, tərəfsiz olmadığını (!) göstərir. Belə olan halda onun guya "vasitəçi" kimi zorla prosesə daxil olmaq cəhdləri kənardan çox idbar və ürəkbulandırıcı görünür. Halbuki Fransa Ermənistan və Azərbaycan münasibətləri üzrə danışıqlarda neytral tərəf deyil və Azərbaycan əsla Makronun bu kimi oyunbazlıq vasitəçiliyini qəbul etmir.

O da əbəs deyil ki, Makronun Rusiyaya qarşı demarşı Azərbaycanı da "nişangaha" çevirmək cəhdi ilk növbədə Ermənistanın baş naziri Nikol Paşinyanın Rusiyaya qarşı daha ürəkli çıxış etməsinə, hətta rəsmi Bakı qarşısında yenidən dil uzatmasına şərait yaradır. Lakin ortada daha bir reallıq da var...

Belə ki, Fransa Paşinyanın tez-tez cinahdəyişmə siyasətinə elə də bel bağlamır. Amma yenə də öz məqsədlərinə çatması üçün hər cür addımlara gedir. Hətta əsas vasitəçilərdən olan Rusiyaya qarşı çıxışlar etməsi ilə Azərbaycan qarşısında öz etibarlıq (etibarlıq isə heç vaxt olmayıb-R.R.) səviyyəsini sıfıra endirir. Artıq danılmayacaq gerçəklik budur - Fransa Emmanuel Makronun timsalında bu kimi həssas dönəm baxımından yararsızdır, hətta təhlükəlidir. Ona görə də Fransanın regionda aktivlik cəhdləri aradan qaldırılmalıdır, əsasən də Ermənistan çərçivəsində. Çünki bunun başqa tərəfləri də var...

### Ermənistan Aİ-KTMT-nin qarşıdurması poliqonuna çevrilə bilər!

Misal üçün, Ermənistan hökuməti elə addımlar atır ki, bu ölkə qarşıdurmalar poliqonuna çevrilir. Təkcə Aİ və KTMT missiyalarının paralel iş aparmaları Ermənistan və onun rəhbərliyi üçün geriyə qaytarıla bilinməyəcək vəziyyət yaşada bilər. Belə davam edərsə regionda sülhün bərqərar olması dalana dirənə bilər. Üstəlik, Ermənistanın daxilində kəskin savaşların başlaması an məsələsinə çevrilər.

Təbii ki, bütün bunları elə Makronun özü də yaxşı bilir və onun məlum siyasətinin sürüşkən makaron kimi görünməsi vəziyyəti gərginləşdirməyə hesablanıb. Hələlik isə, Azərbaycan özünün uğurlu strategiyası ilə səbr, təmkin nümayiş etdirir, eləcə də müxtəlif siyasi meydançalarda iştirakı ilə paralel olaraq dəyişilməz mövqeyini ortaya qoyur. Bəli, Makron ölkəsinin prezidenti olaraq nə isə bəyan edə bilər, hətta onun bəyanatı diqqətə də alına bilər, amma ciddi, yekun qərarların alınmasında əsla rol ala bilməz!

### Bütün təzyiq və şantajlara baxmayaraq rəsmi Bakı ATƏT-in Minsk qrupu formatını qəbul etmir və etməyəcək!

Yeri gəlmişkən, hələ 44 günlük müharibə vaxtı Fransa Senatı qətnamə qəbul edərək hökuməti qondarma "dqr"i tanımağa səsləmişdi. Həmin vaxt açıq-aydın məlum olmuşdu ki, həmin addım rəsmi Bakıya qarşı şantaj siyasəti idi. Yəni məqsəd Azərbaycanın ATƏT-in Minsk qrupundan imtina etməsinin qarşısını məhz belə bir siyasi fahişəlik yolu ilə almaq idi. Amma alınmadı və alınmayacaq da. Ola bilsin ki, bu lazımsız qrup formal, qanuni olaraq qala bilər, ancaq faktiki olaraq o yoxdur. Azərbaycan rəsmi şəkildə bu formatdan imtina edir. Əbəs deyil ki, həmin reallığı elə ATƏT-in Cənubi Qafqaz və Gürcüstan böhranı üzrə xüsusi nümayəndəsi Toyvo Klaar da çıxışı zamanı bildirib.

Görünür, Fransa Senatının Azərbaycana qarşı sanksiyaların tətbiq edilməsi ilə bağlı qətnamə çıxarmaq cəhdi və həmin fonda Emmanuel Makronun məlum fikirlərini ifadə etməsi səyləri də eyni məsələni əks etdirir ki, rəsmi Bakıya qarşı təzyiqlərdən istifadə edilsin. Ancaq bu cəhdlər də boş və əbəsdir. Fransızların makaron siyasəti bu dəfə də kənarda qalacaq və heç bir uğur qazana bilməyəcək.

*Rövşən RƏSULOV*



# Ararat Mirzoyanın sadomazoxizm qoxusu

RÖVŞƏN
rovsen.rasulov@mail.ru

Məlum olduğu kimi, Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan Astanada Rusiyanın XİN başçısı Sergey Lavrovla görüş keçirib. Lakin həmin görüşdə Mirzoyanın gah erməni "məzlumkeşliyi", gah ara-sıra "quyruq bulayaraq" diş qıcıtması, gah ermənilləri 30 il ölməyə, məhv olmağa imkan verməyən Rusiyaya öz təbirincə minnət qoymaq cəhdləri, həmçinin işlətdiyi digər axmaq ifadələri də nəzərdən qaçırılmayıb. Ermənistanın siyasi rəhbərliyi yaxşı bilir ki, hazırkı vəziyyətləri onların özləri üçün nə qədər acınacaqlıdır və eyni zamanda, həmin fondakı "təmizəçıxma" səyləri də sadəcə səy olaraq qalacaq. Ancaq maraq doğurduğu üçün Ararat Mirzoyanın Sergey Lavrovla görüşündəki fikirlərindən bir neçə sitat çıxarmaqla vəziyyəti daha əhatəli şəkildə şərh etmək yerinə düşərdi. Beləliklə, sitat: "Bir çox suallar var ki, İrəvan bu yöndə Moskvanın mövqeyini eşitmək istəyir. Bir çox ölkələr öz vasitəçiliklərini təklif edirlər, amma Ermənistan Rusiyanın kürəyini hiss etmək istəyir. Erməni tərəfi Ermənistan, Rusiya və Azərbaycan liderlərinin üçtərəfli bəyanatlarına sadiqdir. Lakin paralel olaraq Azərbaycanın iştahasının (???!!!-R.R.) artdığını müşahidə edir. Və söhbət yalnız "Dağlıq Qarabağdan" (sitat daxilindəki dırnaqlar bizimdir - R.R.) deyil, həm də Ermənistanın "suveren" ərazilərindən gedir. Ermənistan bu planda müttəfiqi olan Rusiyadan dəqiq reaksiyalar gözləyir. BMT-dəki bəzi ölkələr hansı ki, onlarla uzunmüddətli dostluq tarixi yoxdur - Ermənistan-Azərbaycan sərhədi ilə bağlı daha dəqiq bəyanatlar veriblər".

Göründüyü kimi, Ararat Mirzoyanın həyasızlığı və cəmi bir neçə cümləlik fikirlərindəki çoxşaxəli eyhamları necə deyərlər, gözə girir, üstəlik Lavrovun həmin bəyanatları udması, yaxud uda biləcəyi də inandırıcı görünmür. Moskva uzun illər qoynunda bəslədiyi bu qara və zəhərli ilanın buraxdığı zəhərini görünür, indi-indi hiss etməyə başlayır. Fəqət, Kremlin İrəvana hansı cür dərs verəcəyini buraxaq həmin qırmızı kərpicli qala divarlarının arxasına. Bir lətifədə deyildiyi kimi, "Div əmi özü bilər kimi yeyər, kimi isə ..."

Ancaq bu xüsusda, yəni mövzudan yayınmayaraq sorosçu Paşinyanın sorosçu sığırçını Mirzoyanın qeyd edilən fikirlərinə bəzi şərhlərimi vermək istərdim. Fakt budur ki, Ararat yenidən ziddiyyətli bəyanatlar səsləndirir və buna görə mütləq, amma mütləq (!) yenə də erməni əsgərləri cavab verməli olacaqlar. Üstəlik, bu gün Ermənistan adlı saxta ölkənin Yerablur panteonu (hərbi məzarlığı) daha da genişlənəcək və az qala bütün İrəvanı tutacaq. Bunu etmək üçün isə yeni söz var - 2X2!

Fəqət, Ararat Mirzoyan "Azərbaycanın iştahası" barədə sərsəmləyərkən bilmirmi ki, Azərbaycanın öz torpaqlarına, öz ərazisinə qarşı hər-hansı iştahası ola bilməz və biz hələ Qarabağı demirik! Yəni dəlil budur ki, Ermənistan Azərbaycanın ərazi bütövlüyünə hörmət qoymadıqca, bu əraziləri "Ermənistanın suveren əraziləri" görməyə davam edəcəksə, onda bu saxta ölkə ümumiyyətlə özünün varlığına son qoymalı olacaq.

Sonda isə yadıma bir maraqlı məqam düşdü. Yaxın həmkarımla siyasət barəsində söhbətləşərkən o Ermənistanı və erməni siyasətçilərini sadomazoxist adlandırmışdı. Morzoyanın Lavrovla görüşü zamanı işlətdiyi kəlmələrinin hər birinin arxaından sadomazoxizm qoxusu gəlirdi. Həqiqətən də beləymiş...

# Bakı Sirkinin möhtəşəm premyerasında kuryoz hadisə

## Qarabağ müharibəsi qəhrəmanlarına həsr olunmuş premyera-tamaşada nələr yaşandı?

Bakı Dövlət Sirkində yeni mövsümdə "Beynəlxalq Sirk: Festival qalibləri" adlı beynəlxalq sirk proqramı nümayişinə başlanıb. Dünən axşam tamaşanın premyerası oldu. Noyabrın 27-nə kimi davam edəcək proqramın dünənki tamaşası şəhid və qazi ailələri üçün xeyriyyə məqsədi ilə nümayiş olunurdu. Tamaşaya müharibə qəhrəmanları da dəvət olunmuşdu və zal onları alqışlarla qarşıladı.

Müxtəlif akrobatika və gimnastika kimi sahələri özündə cəmləşdirən, möhtəşəm bir şou oldu. Bundan başqa, sirk proqramında heyvanların xüsusi performansı, klounların peşəkar ustalığı, möhtəşəm illüziya şousu, hava gimnastların fəndləri, pəhləvan nömrələri göstərildi. Proqramda Rusiyadan, Kubadan, Almaniyadan gəlmiş bir sıra məşhur sirk ustaları öz nömrələri ilə çıxış etdilər. Tamaşa Qarabağ atları xüsusi kompozisiyaların nümayişi və çaparların möhtəşəm nömrələrilə başa çatdı. Proqramın təşkilatçısı dünya şöhrətli azərbaycanlı sirk ustası, Ümumdünya Sirk Sənəti Festivalının ali mükafatları laureatı Allahverdi İsrafilov idi. Həqiqətən də, həmişəki kimi, hər şey yüksək peşəkarlıqda edildi və möhtəşəm idi. Lakin

Bakı Dövlət Sirkinin problemləri var. Sirkin binası köhnəlib, həm xaricdən, həm daxildən əsaslı təmirə ehtiyacı var. 1967-ci ildə tikilən binanın 55 yaşı olsa da, Bakı Sirkinin tarixi əslində 120 ildən çoxdur. Maraqlı faktdır ki, Sirkin əvvəlki binaları yanğında məhv olub. Bu haqda qısa arayış verək, sonar keçək məsələnin əsas tərəfinə. 1900-cu illərdə Rus sirkinin ataları sayılan Nikitin qardaşları Bakıda ilk stasionar sirk-heyvanxana açdılar. 1904-cü ildə isə onlar keçmiş "Tarqovı" və "Bolşaya Morskaya" küçələrinin tinində, indiki Nəsimi bağının yerində Şərqdə ilk Sirk-teatr inşa etdirdilər.

1906-cı ildə Sirk-teatrın binası yandı. Ancaq qardaşlar elə həmin il onun yerində daşdan yeni sirk binası inşa etdirdilər. 1916-cı ildə Yefimovlar Nikitin qardaşlarının sökülmüş sirkinin yerində, başqa bir sirk binası tikdilər. 1924-cü ilin dekabrında yanğın bu sirki də məhv etdi və çox keçmədi ki, Kudryavtsev burada öz sirkini qurdu.

Bakıda sirkin fəaliyyət göstərdiyi bütün bu müddət ərzində onun səhnəsində Rusiyanın müxtəlif şəhərlərindən gələn sirk truppaları çıxış edirdilər. O dövrün məşhur sirk truppaları Tanti qardaşlarının, Lerinin rəhbərlik etdiyi kollektivlər də 20-ci illərdə tez-tez Bakıya qastrollara gəlirdilər.



1967-ci ildə isə Bakı sirkinin həyatında ən əlamətdar hadisələrdən biri baş verdi. Arxitektorlar Ənvər İsmayılov və Faina Leontyevanın layihəsi əsasında müasir teatr-sirk avadanlıqları ilə təchiz olunan 3 manejə (su, buz, kauçuk) malik 2000 yerlik sirk binası tikildi. Bu SSRİ məkanında yeganə ilk və yeganə peşəkar sirk binası idi. Keçən 55 idə bu binada çox möhtəşəm tamaşalar verilib. SSRİ-nin, dünyanın nüfuzlu sirk kollektivlərinin burada konsertləri baş tutub. Bakı Sirkinin öz kollektivləri də maraqlı nömrələrlə çıxış edirlər.

Bakı Sirki uşaqların ən çox sevdiyi məkandır. Təəssüf ki, bu binada demək olar ki, ancaq bayramdan bayrama tamaşalar verilir. İldə maksimum 2-3 dəfə. Sirkin binası öz dövrünə görə çox möhtəşəm olsa da, hazırda bir çox tələbləri qarşılamır. Manej kiçikdir, bəzi texniki texniki qurğular quraşdırmaq üçün imkan yoxdur və s. Üstəlik binanın xarici və həyəti də normal deyil. Avtomobillər üçün dayanacaq çox kiçikdir. Binanın fasadı köhnəlib. Zalın da təmirə ehtiyacı olduğu görünür. Hələ mən daxili otaqlarda olmadığıma görə, onların nə vəziyyətdə olduğunu deyə bilmərəm. Maraqlı idi ki, bu dəfə foyedə uşaqlar üçün od qiymətinə şirniyyat, oyuncaq satanlar yox idi.

İndi isə keçək konsertdə baş verənlərə. Şəhərdə dəhşətli tıxac olduğundan tamaşaçıların çoxu gəlib çıxa bilməmişdi və bu səbəbdən tamaşa yarım saat gec başladı. Təqdimat üçün səhnəyə çıxan şəxsin əlindəki mikrafon uzun cəhdlərə baxmayaraq işləmədi. Texniki heyət 10-15 dəqiqə ərzində problemi heç cür həll edə bilmədi. Nəticədə səs-küylü zalda adi səslə danışmalı olan təqdimatçının nə dediyini heç kim eşidə bilmədi. Bu aşkar surətdə Sirkin həm də elektron texniki problemləri olduğunu göstərir.



Tamaşa başladıqdan sonra hər şey qaydasında getdi. Müxtəlif nömrələr bir-birini əvəz etdi, uşaqlar çox sevinc və maraqla izləyirdilər. Nömrələrin birində manejə avtomobil daxil oldu və pəvləvanın üzərindən keçdi- uşaqlar bunu çox təəccüblə izlədilər.

Ən sonda uzun illərdən sonra ilk dəfə Qarabağ atları qrupu və çaparlar möhtəşəm nömrələr göstərdilər- milli oyunlar, at üzərində akrobatik hərəkətlər, xüsusi kompozisiya və s. Bu nömrələr çaparaq gedən atın üstündəki çaparın çiyninə qalxan akrobatın Azərbaycan bayrağını açması ilə başa çatdı- zalın sürəkli və möhtəşəm alqışları altında.

Qeyd etməliyik ki, Bakı Sirkinin orkestri həmişə olduğu kimi, öz işinin öhdəsindən peşəkarlıqla gəldi və canlı musiqilərlə tamaşaların təsirini artırdı. Bütün yaradıcı və yardımçı heyət qüsursuz işlədi.

Onu da qeyd edək ki, sirk biletləri əvvəlki illərlə müqayisədə 2 dəfədən çox bahalaşıb. Bir neçə il əvvələ kimi sirktdə biletlər 5 manatdan başlayırdısa, indi 11 manatdan başlayır. Bu isə imkansız təbəqənin uşaqlarının belə gözəl tamaşalara baxmaq imkanından məhrum edir. O uşaqlar ki, böyüyüb vətən uğrunda canlarını qurban verirlər. 1 valideyn 2 uşağını sirkə gətirmək üçün ən 33 manat biletə, 2 manat da avtobus biletinə - cəmi 35 manat xərc çəkməlidir. Əksəriyyət üçün bu o qədər də az vəsait deyil. Yaxşı olardı ki, sirk biletlərinin qiyməti ucuzlaşdırılsın. Əgər konsertlərdən yığılan pul xərcləri ödəmirsə, onda tamaşaların sayını artırmaqla vəziyyətdən çıxamaq olardı.

Tamaşalar noyabrın 27-dək davam edəcək. Şəhid və qazi ailələri üçün biletlər pulsuzdur. Növbəti srik mövsümü gözəl təmir olunmuş Sirk binasında yeni tamaşalara baxmaq ümidi ilə



***Elçin Bayramlı***
***Fotolar müəllifindir***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Uşaq və gənclərin fiziki və mənəvi inkişafı" çərçivəsində hazırlanıb.



# "Test imtahanında toplanan bal bilik göstəricisi ola bilməz"






"Bir məqamı qeyd edim ki, subbakalavr - orta ixtisas təhsili pilləsində məzunlara verilən peşə-ixtisas dərəcəsidir. Bu o deməkdir ki, XI sinifi bitirib ali məktəbə qəbul olan abituriyent ilə subbakalavr pilləsini bitirib ali məktəbə qəbul olan şəxsin ixtisas biliklərində ciddi fərq var. Belə ki, subbakalavr 2-3 il bu ixtisas haqqında minimum biliklərə yiyələnib və ondan anlayışı var. Əsas odur ki, o ixtisas üzrə abituriyentdən fərqli olaraq ixtisaslı mütəxəssisdir. Ona görə də onların biliklərinin az olması fikri doğru deyil". Bu sözləri SİA-ya açıqlamasında təhsil eksperti Kamran Əsədov deyib.

Onun sözlərinə görə, ümumiyyətlə test imtahanında toplanan bal bilik göstəricisi ola bilməz: "Test sadəcə olaraq seçim üsuludur. Buna görə də subbakalavrların vaxtı ilə az balla kollecə qəbul olmasını onların zəif mütəxəssis olması kimi qiymətləndirmək olmaz. Məlum olduğu kimi, qəbul qaydalarına əsasən orta ixtisas təhsili pilləsi üzrə "subbakalavr" peşə-ixtisas dərəcəsi almış şəxslər qəbul imtahanında iştirak etmədən ali təhsil müəssisələrinə müsabiqə yolu ilə qəbul olmaq hüququna malikdirlər".

Kamran Əsədov sözlərinə belə davam edib: "Subbakalavrlar yalnız orta ixtisas təhsili səviyyəsində təhsil aldıqları tədris dilinə və bitirdikləri ixtisasa uyğun olan ixtisaslar seçə bilirlər. İxtisas seçimi başa çatdıqdan sonra ali təhsil müəssisələrinin qəbul planı çərçivəsində əvvəlcə abituriyentlərin, bundan sonra isə boş plan yeri qalarsa, subbakalavrların müsabiqə əsasında yerləşdirilməsi aparılır. Burada eyni bir yerə iddia edən iki və daha artıq subbakalavrı fərqləndirmək məqsədilə əvvəlcə orta ixtisas təhsili pilləsi üzrə ümumi orta müvəffəqiyyət göstəricisi (ÜOMG), bu göstərici də eyni olduğu təqdirdə attestata fənlər üzrə yazılmış yekun qiymətlərin ədədi ortası nəzərə alınır.

Qeyd edim ki, subbakalavrlar qəbul imtahanında iştirak etmədən müsabiqəyə qoşulurlar və hər hansı bir ixtisasa subbakalavr qəbul olubsa, həmin ixtisas üzrə keçid balı kimi göstərilən bal qəbul imtahanı balı deyil, subbakalavrın kollec təhsili üzrə ümumi orta müvəffəqiyyət göstəricisidir.

Bildiyiniz kimi bu il "Təhsil haqqında" qanuna edilmiş dəyişikliyə görə subbakalavrlar imtahansız universitetə qəbul olmaq hüququ qazandı və 4 min 774 nəfər bundan yararlanıb ali təhsil almağa nail oldu. Qəbul olunan subbakalavrlar say etibarilə daha çox Azərbaycan Kooperasiya Universitetinə (489 nəfər), Azərbaycan Dövlət İqtisad Universitetinə (334 nəfər), Bakı Biznes Universitetinə (319 nəfər) və Sumqayıt Dövlət Universitetinə (306) qəbul olunub. Ali təhsil müəssisələrinin qəbul planı və onların dolma faizinə baxdıqda isə Əmək və Sosial Münasibətlər Akademiyasına qəbul olunanların 56.92%-nin, Bakı Biznes Universitetinə qəbul olunanların 51.45%-nin, Azərbaycan Kooperasiya Universitetinə qəbul olunanların 39.44%-nin subbakalavrlar olduğunu görərik.

Onlar üçün proses iyul ayında başlamışdı. Belə ki, subbakalavrlar Dövlət İmtahan Mərkəzinin internet saytının "ekabinet.dim.gov.az" səhifəsində "Şəxsi kabinet" yaratdıqdan sonra şəxsi kabinetinin istifadəçi adı və parolundan istifadə etməklə DİM-in internet səhifəsinə daxil olub, "Subbakalavrın elektron ərizəsi" formasını təsdiq edirdilər. Tələb olunan məlumatlar "Tələbə-Məzun" dövlət elektron məlumat sistemindən onlayn əldə olunur. Bu məlumatları tam olmayan subbakalavrlar ilk olaraq məzunu olduqları orta ixtisas təhsili müəssisələrinə müraciət etməli və məlumatlarının sistemə daxil olunmasını təmin etməli idilər.

Qeyd edim ki, subbakalavrlar üçün müsabiqədə iştirak ödənişsiz idi. Kollec məzunları olan subbakalavrlar heç bir imtahan vermirdilər. Belə ki, subbakalvrlar ixtisas seçimində Dövlət İmtahan Mərkəzinin müvafiq ixtisas qrupları (ixtisaslar) üzrə müəyyən etdiyi keçid balı ilə iştirak edirdilər. Məsələn: I,II,III və IV ixtisas qruplarının biri üzrə müsabiqədə iştirak etmək istəyən subbakalavr 200 balla (müəyyən ixtisaslar üzrə müvafiq olaraq 150 və 250 balla), V ixtisas qrupu üzrə müsabiqədə iştirak etmək istəyən subbakalavr 60 balla ixtisas seçimində iştirak edirdilər.

İxtisas seçimi zamanı eyni bir yerə biri abituriyent digəri subbakalavr olmaqla iki nəfər iddia edərsə, bu zaman həmin yerə abituriyent qəbul olunub. Subbalakavr kimi ali məktəbə qəbul olmaq istəyən kollec məzununun diplomunda subbakalavr sözü olmalıdır".

*Ayşən Vəli*

## Gicitkən toxumunun yağı dərini cavanlaşdırır



Gicitkən toxunduqda əllərdə yanma və qaşınma yaradan bitki növüdür. Bu yanma və qaşınmaların səbəbi gicitkəndə olan kimyəvi maddələrdir. Bu kimyəvi maddələr histamin, qarışqa turşusu, serotonin və asetilkolindir. Gicitkən yarpaqlarının səthindəki tüklər çox nazik bir quruluşa malikdir. Bu səbəbdən də gicitkənə yüngülcə toxunulduqda tüklər qopur və içindəki kimyəvi maddələr üzə çıxır. Bu maddələr insan dərisində qızartı, şişlik, ağrı, qaşınma və uyuşmaya səbəb olur.

Bir sıra nüfuzlu tibbi saytlarında yer alan məlumatlarda qeyd olunur ki, gicitkənin özü qədər onun yağı da insan orqanizmi üçün faydalıdır. Gicitkən yağı təbii şəraitdə yetişdirilən gicitkən toxumlarından əldə edilir.

Gicitkən toxumu yağı təbii komponentləri ehtiva edən, sağlamlıq üçün olduqca faydalı bitki yağıdır. Dəri və dəri xəstəlikləri başda olmaqla bir çox fərqli sahədə istifadə edilir. Gicitkən yağı digər bitki mənşəli yağlarla müqayisədə çox təsirlidir. Dəri problemləri, saç xəstəlikləri və kosmetik tədqiqatlarda da geniş istifadə olunur. Gicitkən yağından hazırlanmış şampun və sabun sağlam saç görünüşünə nail olmaq üçün əlverişlidir. Gicitkən toxumu yağı gənclik yağı kimi də tanınır. Bunun səbəbi yağın tərkibində olan alfa hidroksi oksiddir. Bu turşu dərini cavanlaşdırır. Eyni zamanda orqanizmi toksinlərdən təmizləyir, allergik xəstəliklərdən əziyyət çəkənlər üçün faydalıdır.

## Xəbərdarlıq: Yağış yağacaq, şimşək çaxacaq



**Oktyabrın 13-ü şərq rayonlarından başlayaraq oktyabrın 16-sı gündüzədək ölkə ərazisində hava şəraitinin qeyri-sabit keçəcəyi, şimşək çaxacağı, fasilələrlə yağış yağacağı gözlənilir.**

Bu barədə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən məlumat verilib. Bildirilib ki, qərb küləyi əsəcək, oktyabrın 14-də gündüz, 15-də isə bəzi yerlərdə arabir 15-20 metr/saniyə olacaq. Çaylarda sululuğun artacağı ehtimal edilir.

## Qardaşını öldürən şəxs tutulub

***Oktyabrın 12-si saat 20 radələrində Yevlax rayonu ərazisində 1973-cü il təvəllüdlü Vüqar Əsədovun öldürülməsi barədə rayon prokurorluğuna məlumat daxil olub. Yevlax rayon prokurorluğundan SİA-ya verilən məlumata görə, aparılmış araşdırmalarla zərərçəkmişin qardaşı, 1971-ci il təvəllüdlü Elşad Əsədovun şəxsi münasibətlər zəminində aralarında yaranmış münaqişə zamanı bıçaqla xəsarət yetirərək Vüqar Əsədovu qəsdən öldürməsinə əsaslı şübhələr müəyyən edilib.***



Faktla bağlı Yevlax rayon prokurorluğunda Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) maddəsi ilə cinayət işi başlanıb. Elşad Əsədov şübhəli şəxs qismində tutularaq istintaqa cəlb edilib. İş üzrə istintaq davam edir.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3600**